# Cənubi Qafqazda yeni düzən formalaşır


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

N 28 (3367) 12 avqust / 2025-ci il    Həftədə 1 dəfə çıxır    Qiymәti: 60 qәpik


ANA XƏBƏR



## Sərhədçinin intiharı ilə bağlı şok faktlar

# Zəngəzür dəhlizi İran rejimini iki yerə “parçaladı”

## Putin Rusiyası isə hələ də “ölmüş” bəyannamədən yapışıb




12

GÜNÜN NƏBZİ

Siyasət

### Qələbə və sülhün düşünən lideri



İlham Əliyevin liderliyi Azərbaycanın inkişaf yolunda dayanıqlı və qətiyyətli addımlar atmasının əsas təminatı kimi qalır

3

Cəmiyyət

### Sülh sammiti Azərbaycana nə verdi?

Vaşinqton anlaşması təkcə iki ölkə arasında imzalanan sənəd deyil, bölgənin yenidən “formatlanmasıdır”

7

Fakt

### Kürdəmirdə dövlətin milyonları talan edilir

Qaramahmudlu kənd sakini tərəfindən ölkə rəhbərliyinə şok müraciət

6

Layihə

### “Kapital Bank” dələduzlarla əlbir işləyir?

Müştərinin hesabından pul çıxaran kibercinayətkarların adı niyə gizli saxlanılır?

4

Ölkə

### “Köhnə Bakı üçün, köhnə insanlar üçün darıxıram”

Cahangir Novruzov: “Sənət əxlaqının mənə miras qoyduğu şərtləri qəbul edərlərsə, Azərbaycana gələrəm”

13

Tibb

### Zəngəzurlu Trampın açarı

Ağ Evin simvolik açarı bizim üçün xoşbəxtlik və təhlükəsizlik təminatı olmasa da, ondan ağıllı istifadə etmə şansına olduqca ciddi yanaşmalıyıq



11

Araşdırma

### Xanlarovanın şirkəti Şərur sakininin torpağını zəbt edib

İsgəndər Mahmudov: “Ali Məhkəmənin qərarını sayan yoxdur”



4

Cəmiyyət

## Bakıda dəhşətli qətl hadisəsi

34 yaşlı kişi öldürüldü, meyiti doğranaraq Ağsuda dağlıq əraziyə atıldı

***Bakıda 34 yaşlı kişi qətlə yetirilib. Hurriyyet.az xəbər verir ki, hadisə Nəsimi rayonunda münaqişə zəminində qeydə alınıb. 1977-ci il təvəllüdlü Fazil Feyzullayev kirayədə yaşadığı evdə onunla birgə yaşayan Tərtər rayon sakini 1991-ci il təvəllüdlü İsgəndər Əliyevi küt alətlə qətlə yetirib. Daha sonra meyiti hissələrə ayırıb sellofan torbalara yığaraq avtomobildə Ağsu rayonuna apararaq dağlıq ərazidə iki müxtəlif yerə atıb.***

2

Ölkə

## Azərbaycanlılar kütləvi halda Rusiyadan qovulur

Təkcə bir vilayətdən 30-dan çox azərbaycanlı deportasiya olunub

***Rusiyanın Sverdlovsk vilayətindən 30-dan çox azərbaycanlı deportasiya olunub. Bu barədə Rusiyanın Federal Məhkəmə İcraçıları Xidmətinin hesabatından məlum olur. Bildirilir ki, yanvar-iyul ayından vilayətdən təxminən 1000 qanunsuz miqrant çıxarılıb. Onların əksəriyyətini Mərkəzi Asiya ölkələrinin (Tacikistan, Özbəkistan, Qırğızıstan) vətəndaşları təşkil edir. Deportasiya edilənlərin siyahısında həmçinin 33 azərbaycanlı var.***

2

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

N 28 (3367) 12 Avqust / 2025-ci il   Həftədə 1 dəfə çıxır   Qiymәti: 60 qәpik

## Əyləncə səhifəsi

## ChatGPT dünyanın su ehtiyatını məhv edirmiş




***ChatGPT beynimizlə bərabər, dünyanın su ehtiyatlarını da məhv edirmiş.***

Bu fikir son vaxtlar bəzi mütəxəssislər tərəfindən səsləndirilir və narahatlıq doğurur. Süni intellektin beynimizi "məhv etməsi" dedikdə, daha çox insanın düşünmə qabiliyyətinin zəifləməsi, diqqət dağınıqlığı və intellektual tənbəlliyin artması nəzərdə tutulur. Çünki insanlar getdikcə daha çox süni intellektə güvənir və öz analiz, qərarvermə bacarıqlarını az istifadə edir.

Su ehtiyatlarına gəldikdə isə, bu, texnologiyanın arxa plandakı sərfiyyatı ilə bağlıdır. Süni intellekti işlətmək üçün böyük server mərkəzləri fəaliyyət göstərir və bu mərkəzlər həm çoxlu enerji, həm də soyutma üçün tonlarla su sərf edir. Xüsusən quraq bölgələrdə bu, su qıtlığını daha da ağırlaşdıra bilər.

Süni intellektin yayılması ilə bağlı aparılan bəzi psixoloji araşdırmalar göstərib ki, insanlar artıq məlumat axtarmaqda, qərar verməkdə və problem həll etməkdə daha az zəhmət çəkməyə başlayıb. Çünki süni intellekt alətləri (məsələn, ChatGPT, Google Bard, avtomatik tərcümə proqramları) bunları bizim yerimizə edir. Nəticədə insan beyni bu bacarıqları məşq etmədikcə zəifləyir. Buna "rəqəmsal tənbəllik" və ya "kognitiv atrofiyaya doğru getmək" deyilir. Yəni beyin əzələ kimi, işlətmədikcə zəifləyir. Bəzi alimlər xüsusilə gənclərdə diqqət dağınıqlığının, oxuma vərdişinin azalmasının və dərindən düşünmə bacarığının gerilənməsinin süni intellekt alətlərinin həddsiz istifadəsi ilə əlaqəli olduğunu deyirlər.

Süni intellekt modelləri, məsələn, OpenAI-nin ChatGPT-si və Google-un Gemini-si kimi böyük dil modelləri işləyərkən yüz minlərlə server fasiləsiz işləyir. Bu server mərkəzlərini soyutmaq üçün çoxlu miqdarda su istifadə olunur. Məsələn, 2023-cü ildə açıqlanan hesabatlara görə, yalnız Microsoft və OpenAI-nin süni intellekt layihələri Çində yerləşən serverlərdə bir il ərzində milyonlarla litr su sərf edib. Konkret desək, bir böyük süni intellekt modeli ildə 700 min ilə 1 milyon arasında insanın içməli su ehtiyacına bərabər miqdarda su istifadə edir. ABŞ-nin Arizona və Ayova ştatlarında belə server mərkəzlərinin çoxluğu səbəbindən yerli su ehtiyatlarında azalma qeydə alınıb. Bu, xüsusilə iqlim dəyişiklikləri fonunda quraqlıq yaşayan bölgələr üçün təhlükədir.

# Qəflətən yoxa çıxan gəmi haqda şok faktlar...



***Necə oldu ki, 1240 tonluq USS Eldridge bır neçə dəqiqə sonra 600 km uzaqlıqda aşkar edildi?***

1240 tonluq USS Eldridge adlı döyüş gəmisi əvvəlcə yaşıl-mavi işıqla əhatə olundu, sonra isə birdən yoxa çıxdı. Bu vaxt heyət ağıllarını itirdi, bədənləri gəmi ilə birləşdi.

"Milliyyət" xəbər verir ki, 1943-cü ildə baş vermiş Filadelfiya Təcrübəsinin həqiqi olub-olmaması bu gün də müzakirə olunur. Bəs, hadisənin arxasında nə dayanır?

Hər şey 1943-cü ildə ABŞ-nin Pensilvaniya ştatına bağlı Filadelfiya şəhərində Amerika donanmasının Filadelfiya Təcrübəsini keçirdiyi barədə iddiaların ortaya çıxması ilə başladı. Təcrübə donanmanın qoruma destroyeri olan DE 173 sinifinə aid 1240 tonluq USS "Eldridge" adlı döyüş gəmisinin radar siqnallarına görünməz hala gətirilməsi məqsədilə aparılmışdı. Təcrübə zamanı gəmi yaşıl-mavi işıqla əhatə olunub birdən yoxa çıxıb. Bir neçə dəqiqə ərzində isə 600 km-dən çox məsafəyə gedərək saniyələr içində Norfolk Virciniyada bir gəmi təmir zavodunda peyda oldu. Yəni ABŞ donanmasına aid gəmi yoxa çıxıb, başqa limanda ortaya çıxıb və yenidən geri dönmüşdü.

Təcrübənin keçirilmə ehtimalından ilk danışan şəxs Morris K. Jessup idi. Jessup həvəskar astronom idi və UFO-lar üzərində apardığı araşdırmalarla tanınırdı. Təcrübə ilə marağı isə 1955-ci ildə əlinə keçən bir məktubla başladı. Məktub, Carlos Miguel Allen adlı şəxs tərəfindən yazılmışdı və təcrübədən geniş bəhs edirdi. Allen iddia edirdi ki, o, təcrübəyə müşahidə gəmisində iştirak edən "SS Andrew Furuseth" adlı gəmidə xidmət edən bir dənizçi idi və təcrübənin bütün mərhələsinə şahid olmuşdu. Gəminin gözləri qarşısında yoxa çıxdığını bildirən Allen təcrübənin Enşteyinin "birgə sahə nəzəriyyəsi" əsasında keçirildiyini və bunun nəticəsində heyətin ağır itkilər verdiyini iddia edirdi.

### Məqsəd optik görünməzlik imiş

Enişteynin "Birgə Sahə Nəzəriyyəsi" sadəcə obyektlər arasındakı cazibə və elektromaqnetizm prinsiplərinə əsaslanırdı. O, 1920-ci illərdən etibarən bu nəzəriyyə üzərində çalışıb, 1925-1927-ci illərdə Almaniyada bir fizika jurnalında tədqiqatlarını yayımlayıb, lakin işlərini heç vaxt tamamlamayıb. İddiaya görə, təcrübə işləri 1930-cu ildə Çikaqo Universitetində başlamış, bir il sonra Princeton Universitetində davam etdirib. Həta Albert Enişteyn ilə yanaşı, Dr. John von Neumann və Dr. Nikola Teslanın da layihədə zaman-zaman iştirak etdiyi iddia edilib. "Birgə Sahə Nəzəriyyəsi"nin təcrübədə tətbiqi isə "gəminin üzərinə güclü elektromaqnetik sahə yaradaraq işıq və radar siqnallarını qırmaq və ya əyməklə optik görünməzlik təmin etmək" kimi planlaşdırılmışdı.

Bu məqsədlə 75 VA gücündə iki böyük generator gəminin ön top taretlərinin altına quraşdırıldı, oradan gəminin göyərtəsinə 4 maqnit şüası yayılacaqdı. 3 RF vericisi, hər biri 2 meqavat gücündə olan CW tipindədi və onlar da göyərtəyə quraşdırılmışdı. 3000 ədəd 6L6 güc artırıcı tüp, iki generatorun yaratdığı enerjini yayacaqdı. Xüsusi modulyasiya dövrələri digər avadanlıqların yaratdığı kütləli elektromaqnetik sahələri idarə edir, qırılmış şüalar və radio dalğaları gəmini əhatə edirdi. Nəticədə gəmi düşmən müşahidəçiləri üçün görünməz olmalı idi. Məqsəd görünməzlik idi, lakin iddiaya görə donanma bu təcrübədə təsadüfən maddənin işıqlanmasını həyata keçirmişdi.

### Əsgərlər yoxlamağı rədd etdi

Allen məktublarında, yaşıl işıqla əhatə olunan gəminin bir neçə dəqiqə sonra tamamilə yox olduğunu, sonra isə başqa limanda peyda olduğunu yazmışdı. Lakin ABŞ Donanması bu iddiaları açıq şəkildə təkzib etdi. Donanmanın rəsmi qeydlərinə görə, Eldridge təcrübənin keçirildiyi vaxtda Filadelfiyada belə olmayıb. Həmçinin həmin dövrdə gəmidə xidmət edən əsgərlər belə bir təcrübəyə şahid olmadıqlarını bəyan etdilər. Buna baxmayaraq, Allenın hekayəsi bir çox insanlarda şübhə yaratdı və təcrübənin üzərindəki sirr illərlə davam etdi.

Ən çox danışılan iddialardan biri, təcrübənin heyət üzvlərinə təsiri idi. İddiaya görə, bəzi əsgərlər ciddi xəstələndi, bəziləri psixoloji problemlər yaşadı, bəziləri isə gəminin metal gövdəsi ilə birləşdi. Həyatında canlı şəkildə gövdəyə yapışan əsgərlər olduğu iddia edildi. Bu kimi hekayələr təcrübəni qorxu elementi halına gətirdi. Xüsusilə 1984-cü ildə çəkilən "The Philadelphia Experiment" filmi ilə bu səhnələr kollektiv yaddaşda canlandı. Lakin gəminin heyəti hadisələrin əsassız olduğunu dəfələrlə bildirdi. Gəmi qeydlərində belə bir hadisəyə dair heç bir məlumat yox idi.

Filadelfiya Təcrübəsinin ortaya çıxmasında əsas rol oynayan Carl M. Allen, bir çox mənbəyə görə etibarlı biri deyildi. Çünki fərqli zamanlarda eyni hadisəni həm təsdiqləmiş, həm də inkar etmişdi. Məktublarındakı qarışıq hərflər, nizamsız yazı tərzi və bəzən "Mən uydurdum" kimi açıqlamalar verməsi onun ya diqqət çəkmək istədiyini, ya da psixoloji problemləri olduğunu göstərirdi.

### Görünməz deyil, amma...

"Gökkuşağı Layihəsi" (Rainbow Project) adı ilə də tanınan bu təcrübə 1984-cü ildə filmə çəkilənə qədər ciddiyə alınmamışdı. Lakin o vaxtdan bu yana rəsmi qurumlar dəfələrlə inkar etməsinə baxmayaraq, ən çox maraq doğuran mövzulardan biri olaraq qalır.

Allenın iddialarına qarşı elmi araşdırmalar göstərir ki, USS Eldridge görünməzlik yox, maqnit torpidolara qarşı "degaussing" adlı müdafiə sistemi ilə təchiz edilmişdi. Bu sistem gəminin maqnit izini silərək düşmən torpidolarından qoruyurdu. Bu prosesdə istifadə olunan yüksək gərginlikli kabellər xaricdən gəmi ətrafında işıq və parıltı yaranmasına səbəb ola bilirdi. Bundan əlavə, yaşıl-mavi işıq hadisəsi gəmidə tez-tez müşahidə olunan "St. Elmonun Atəşi" adlı atmosfer hadisəsi ilə də izah oluna bilər. Norfolk və Filadelfiya arasındakı daxili su yolları sayəsində gəminin saatlarla yer dəyişməsi də mümkün idi. Beləliklə, iddiaların çoxu elmi və logistika baxımından açıqlana bilirdi.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet ünvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

***Rusiya öz yaramaz, irticaçı, qaba gücə söykənən xarici siyasəti, xüsusilə də Ukraynada apardığı amansız işğalçılıq müharibəsi sayəsində Qafqazdakı nüfuzunu demək olar, sıfırlamaq üzrədir. İranınsa xüsusilə İsrailin 12 günlük əməliyyatından sonra az qala “quru nəfəsi” qalıb. Bu baxımdan regiona destruktiv, işğalçı Rusiya-İran təsirinin öz yerini yaradıcı, investisiya və iqtisadi yönümlü Türkiyə-Qərb təsirinə verməsi artıq qaçılmazdır.***




# Zəngəzür dəhlizi İran rejimini iki yerə “parçaladı”

## Putin Rusiyası isə hələ də “ölmüş” bəyannamədən yapışıb

Rusiya hələ əvvəlcədən üzdə Zəngzəur dəhlizinin açılmasına qarşı olmadığını nümayiş etdirib və ötən illərdə 2020-ci ilin 10 noyabr sazişində bununla bağlı maddənin mövcudluğuna istinad edib. Lakin Kreml bu dəhlizin yalnız özünün siyasi və hərbi nəzarəti altında işləməsini istəyib. Bu da onun həm regiona, həm də Türkiyəni Azərbaycan və Orta Asiya Türk respublikaları ilə birləşdirəcək xəttə nəzarət imkanını tanımış olurdu. Elə Moskvanın Azərbaycanla Ermənistanın imzaladağı Vaşinqton sənədinə münasibəti də bu kontekstdən irəli gələrək, 2020-ci ilin 10 noyabr sazişinə əsaslanır. O sazişə ki, artıq “ölüdür”...

Tehransa lap əvvəldən Zəngəzur dəhlizinə “yox” deyib və bunu müxtəlif bəhanələrlə, o cümlədən, guya regionda sərhədlərin dəyişəcəyi, guya İranın şimala yolunun bağlanacağı və digər yalan, saxta səbəblərlə izah edib.

İndi isə xüsusilə Vaşinqtondakı məlum görüşdən və imzalanan sənədlərdən sonra İran rəhbərliyində Zəngəzur dəhlizi ilə bağlı bir növ “ikitirəlik” müşahidə olunur. Bu bəyanatdan sonra ilk ortalığa atılan İranın ali dini lideri Xameneinin müşaviri Əli Əkbər Vilayəti oldu.

Rəhbərinin dili ilə danışan Vilayəti İranın az qala “yeri-göyü silkələyəcəyini” bildirib və onun sərhədi yaxınlığında “ABŞ-nin rəhbərlik etdiyi nəqliyyat dəhlizi”nin yaradılmasına icazə verməyəcəyini qeyd edib: “Qafqaz dünyanın ən həssas coğrafi nöqtələrindən biridir və bu dəhliz Trampın sahib olduğu tranzit marşrutu yox, onun muzdluları üçün qəbiristanlıq olacaq”.

O, Rusiyanın da strateji baxımdan bu dəhlizin əleyhinə olduğunu deyib və İranın Moskvanın iştirakı olmadan belə bu dəhlizin qarşısını alacağını söyləyərək, “xoruzlanıb”...

Lakin Vilayətini “iniltisi” Xamenei rejiminin əlacsızlığının və acizliyinin növbəti nümayişindən başqa bir şey olmadı. Onun ardınca çıxış edən İran rəsmiləri daha yumşaq və “yolagələn” açıqlamalar verdilər.

İlk olaraq Prezident Məsud Pezeşkian bu məsələnin “şişirdildiyini” və İranın Zəngəzur dəhlizinin əleyhinə olmadığını bəyan etdi: ”İran Zəngəzur dəhlizinin region dövlətlərinin ərazi bütövlüyünü pozmayacağı təqdirdə həyata keçirilməsini dəstəkləyir”.




Onun sözlərinə görə, Tehranın bu məsələ ilə bağlı tələbləri yerinə yetirilib: ”Marşrut mövcud sərhədləri qoruyur, nəqliyyat əlaqəsini təmin edir, Avropa və şimala tranzitə mane olmur”. Eyni zamanda, Pezeşkian yalnız ABŞ şirkətlərinin layihədə iştirakından narahatlığını bildirib.

Ancaq nəzərə alsaq ki, İranda Prezident heç də əsas və son söz sahibi deyil, onun bu açıqlamasına İranın rəsmi mövqeyinin qeyd-şərtsiz izahı kimi baxmamaq da olardı. Lakin onun ardınca çıxış edən İranın Xarici İşlər naziri Abbas Əraqçinin açıqlaması göstərdi ki, Pezeşkianın mövqeyi bir növ ümumilikdə İran rejiminin mövqeyilə uzlaşdırılıb. Belə ki, Əraqçi çərşənbə axşamı Ermənistan xarici işlər nazirinin müavininin Tehrana gələcəyini və onunla məsləhətləşmələr aparılacağını deyib.




Eyni zamanda əlavə edib ki, söhbət dəhliz yox, yoldan gedir və İran müəyyən şərtlər nəzərə alınmaqla, bunun əleyhinə deyil: ”Qafqaz regionuna gəlincə, bizim mövqelərimiz tamamilə aydındır: biz regionun bütün ölkələrindən öz əraziləri üzərində tam suverenliyi qoruyub saxlamağı, regionun bütün ölkələrinin ərazi bütövlüyünə hörmət etməyi və beynəlxalq sərhədlərdə heç bir dəyişikliyi qəbul etməməyi tələb edirik. Ermənistandan keçən dəhliz məsələsi tamamilə aradan qaldırılıb, söhbət Ermənistanın suverenliyi və yurisdiksiyası altında, bu ölkənin ərazisində tikiləcək tranzit yolundan gedir. Bu layihənin həyata keçirilməsi şirkətin məsuliyyətindədir və bəyanatda qeyd olunur ki, bu, Ermənistanda qeydiyyatdan keçmiş və bu ölkənin qanunvericiliyinə uyğun fəaliyyət göstərən Amerika-Ermənistan şirkəti olacaq... Təbii ki, regionda istənilən formada xarici mövcudluğun regionda sülh və sabitlik üçün mənfi nəticələri ola bilər. Biz bu məsələni Azərbaycan və Ermənistan tərəfləri qarşısında həmişə qaldırmışıq və bundan sonra da vurğulayacağıq”.

Xameneinin digər yaxın adamı - İranın Xarici Əlaqələr üzrə Strateji Şurasını təmsil edən Əli Baqeri isə deyib ki, “Zəngəzur dəhlizinin geosiyasi təsirləri var və “İran bunu gözardı etməyəcək”.

Bir sözlə, İrandakı hakim fars rejimi bir yandan əlacsızlıqdan Zəngəzur dəhlizinə birmənalı “yox” deyə bilmir. Buna görə bir növ özünə təskinlik verərək, onun əhəmiyyətini azlatmağa və guya İranın qoyduğu şərtlərə əməl olunduğunu göstərməyə çalışır. Hansı ki, nə Azərbaycanın, nə də xüsusilə bu razılaşmanın əsas qarantı kimi çıxış edən ABŞ-nin İranın hansısa “şərtlərini” gözdən keçirdiyini, onunla hesablaşdığını düşünmək absurddur.

Digər yandan, tərəflər zatən İranın guya narahatlıq keçirdiyi “ərazi bütövlüyü”, “sərhədlərin qorunması” və digər bu kimi prinsiplərdən çıxış ediblər və məlum sənəddə Tehranın “ilişəcəyi” hər hansı bir müddəa yoxdur.

Ermənistana gəlincə, o da bu məsələdə ilk növbədə ABŞ-yə, Qərbə istinad edir, İranı isə “yola verməklə” vəziyyətdən çıxmağa çalışır.

İstənilən halda, Azərbaycan bu tarixi razılaşmanı imzalamaqla olduqca məharətli siyasi, diplomatik gediş etdi. İndi məsuliyyət dəhlizin keçəcəyi Ermənistanın və bu yolun qarantı olan ABŞ-nin üzərindədir. İran öz suallarını və iradlarını(əgər bacarırsa) onlara yönəltməlidir.

Rusiya öz yaramaz, irticaçı, qaba gücə söykənən xarici siyasəti, xüsusilə də Ukraynada apardığı amansız işğalçılıq müharibəsi sayəsində Qafqazdakı nüfuzunu demək olar, sıfırlamaq üzrədir. İranınsa xüsusilə İsrailin 12 günlük əməliyyatından sonra az qala “quru nəfəsi” qalıb. Bu baxımdan regiona destruktiv, işğalçı Rusiya-İran təsirinin öz yerini yaradıcı, investisiya və iqtisadi yönümlü Türkiyə-Qərb təsirinə verməsi artıq qaçılmazdır.

***C.MƏMMƏDLİ***




# Rusiyanın aqressiyası artır

## Kremlin təcavüzkar siyasəti dünya üçün təhlükə yaradır

***Son illər Rusiya Federasiyasının xarici siyasəti beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurub. Xüsusilə, 2008-ci ildə Gürcüstana müdaxilə, 2014-cü ildə Krımın işğalı və 2022-ci ildə Ukraynaya qarşı başladılan genişmiqyaslı müharibə Rusiyanın post-sovet məkanında özünü yenidən təsdiq etmək səylərini əks etdirir. Bu hadisələr təkcə region ölkələri üçün deyil, bütün dünya üçün təhlükəyə çevrilib.***



### Tarixi fəaliyyət: Sovet mirası və yeni məqsədlər

Soyuq Müharibənin yekunu olaraq Sovet İttifaqının dağılmasından sonra Rusiya uzun müddət daxili siyasi və iqtisadi böhranlarla boğuşdu. Lakin Vladimir Putinin hakimiyyətə gəlməsi ilə Moskva itirilmiş nüfuzunu bərpa etmək üçün aqressiv xarici siyasət yürütməyə başladı. Bu siyasət "yaxın xaric" kimi müəyyən edilən keçmiş sovet ölkələri üzərində təsirini saxlamaq istəyindən irəli gəlir.

### Ukrayna nümunəsi işğalın açıq göstəricisidir

2014-cü ildə Krım yarımadasının işğalı beynəlxalq hüququn açıq şəkildə pozulması idi. Rusiyanın hərəkəti Ukraynanın Avropa İttifaqı və NATO ilə birləşmək səylərinə reaksiya kimi şərh edilib. 2022-ci ildə başlayan genişmiqyaslı işğal artıq təkcə regional problem deyil, qlobal təhlükəsizlik böhranı idi. Milyonlarla insan didərgin düşdü, yüz minlərlə dinc sakin həyatını itirdi və Avropa İkinci Dünya Müharibəsindən bəri görünməmiş dağıntılar yaşadı.

### Rusiyanın taktikası: hibrid müharibə və "propaqanda"

Rusiya təkcə hərbi müdaxilələrlə deyil, həm də hibrid müharibə yolu ilə öz təsirini genişləndirməyə çalışır. Kiberhücumlar, dezinformasiya, saxta xəbərlərin yayılması və enerji asılılığı Kremlin müasir müharibə alətləridir. Bu üsullar demokratik institutları zəiflədir və xalqlar arasında qütbləşməni dərinləşdirir.

### Azərbaycan və Cənubi Qafqaz: Rusiyanın strateji hesabları

Cənubi Qafqaz regionu Rusiya üçün həmişə strateji əhəmiyyətə malik olub. Onun Ermənistanla hərbi müttəfiqliyi, Gürcüstana təzyiqləri, vaxtaşırı Azərbaycana qarşı dolayı mesajlar verməsi Moskvanın regionda öz hökmranlığını saxlamaq istəyini açıq şəkildə nümayiş etdirir. Xüsusilə, 2020-ci il Qarabağ Müharibəsindən sonra regionda dəyişən dinamika Rusiyanın bu prosesdə neytral qalmadığını nümayiş etdirdi. Ötən ilin dekabrında Bakıdan Qroznıya uçan Azərbaycan sərnişin təyyarəsi Qazaxıstanın Aktau yaxınlığında Rusiya tərəfindən vuruldu. Sərnişinlər və ekipaj üzvləri də daxil olmaqla 38 Azərbaycan vətəndaşı həlak oldu, 29-u yaralandı. Təxminən səkkiz aya yaxındır ki, Rusiya günahkarların tutulması üçün qanuni tədbirlər görmür, insidentlə bağlı Azərbaycandan rəsmi üzr istəməyib, təyyarədə həlak olan və yaralananların ailələrinə və Azərbaycan hökumətinə təzminat ödəmir. Azərbaycan prezidenti İlham Əliyev bildirib ki, Azərbaycan bu məsələ ilə bağlı Rusiyanı beynəlxalq məhkəməyə verəcək.

Bu ilin iyun ayında Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlı Səfərovlar ailəsinin müxtəlif ünvanlarında Rusiya Federal Təhlükəsizlik Xidmətinin keçirdiyi əməliyyat zamanı iki nəfər vəhşicəsinə işgəncələrə məruz qalaraq öldürüldü, 50-dən çox azərbaycanlı həbs edildi.

Rusiya mətbuatı isə hələ də Azərbaycana qarşı təxribatlarla məşğuldur. Rusiyanın TASS xəbər agentliyi Qarabağın Xankəndi rayonunu ermənicə "Stepanakert", Rusiyanın dövlət televiziyası "Rossia 1" isə Qarabağı ermənicə "Artsax" adlandırdı.

Bir neçə gün öncə isə Rusiya hərbçiləri Ukraynada Azərbaycanın qaz tədarükü üçün istifadə etdiyi əsas enerji infrastrukturuna aviazərbələr endirib. Hücumda istifadə edilən silahların "Geran" tipli kamikadze pilotsuz təyyarələr və qanadlı raketlər olduğu bildirilir. Hücum stansiyaya ciddi ziyan vurub və qaz təchizatının bir hissəsini kəsib. Bu infrastruktur Azərbaycan qazının Ukraynaya nəqli üçün nəzərdə tutulmuş Trans-Balkan marşrutunun bir hissəsidir. Bu marşrut Azərbaycan qazını Türkiyə, Bolqarıstan və Rumıniya vasitəsilə Ukraynaya nəql edir. Pilot layihəyə bir neçə həftə əvvəl start verilib və Ukrayna bu ixracı öz enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində strateji addım kimi qiymətləndirib.

Ukrayna 2025-ci ilin əvvəlindən Rusiya ilə qaz tranziti müqaviləsini uzatmayıb. Buna görə də Ukrayna qazının Avropaya ənənəvi nəqli marşrutu Moskva üçün bağlanıb. Azərbaycan qazı Qərb və Ukrayna üçün alternativ enerji mənbəyi kimi meydana çıxıb. Lakin Rusiya bu alternativi qəbul etməkdən imtina edir və sözügedən infrastruktura təzyiq göstərməklə öz mövqeyini nümayiş etdirir.

Bu vəziyyətin diqqət çəkən cəhətlərindən biri hücum zamanı dağıdılan Orlovka yanacaqdoldurma məntəqəsinin təkcə Ukrayna üçün deyil, həm də Trans-Balkan regionu üçün kritik əhəmiyyət kəsb etməsidir. Hücumun nəticələri Kiyevi və Avropanın qaz siyasətini çətin vəziyyətə sala bilər.

### Nəticə: güc və ya təhlükə?

Rusiyanın işğalçı siyasəti təkcə keçmiş sovet respublikalarına deyil, həm də Avropa, Yaxın Şərq və hətta Asiya-Sakit okean regionuna birbaşa təsir göstərir. Əgər beynəlxalq ictimaiyyət bu vəziyyətə qarşı vahid mövqe nümayiş etdirə bilməsə, digər regionlarda da oxşar ssenarilər qaçılmaz ola bilər. Putin kimi diktatorlar qanla qidalanır, Putin isə 21-ci əsrin Hitleridir.

### Yekun

XXI əsrdə dövlətlərin suverenliyinə, sərhədlərinə, xalqların iradəsinə hörmət beynəlxalq nizamın əsasını təşkil edir. Rusiyanın təcavüzkar siyasəti bu bünövrəni sarsıdır və sülhə təhlükə yaradır. Türkiyə və Azərbaycan, bütün türk dünyası, bütün dünya başa düşməlidir ki, Ukrayna ikiayaqlı canavarla müharibə aparır. Ona görə də dünya artıq susmamalı, qanunun aliliyi və insan haqlarının yanında olmalıdır.

***İlkin MƏMMƏDKƏRİMOV***



# Moskva hücumları davam etdirərsə...

## Rəsmi Bakı bu qərarı verə bilər...

***Srağagün Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub. Görüşdə Rusiyanın Ukraynanın qaz infrastrukturu və SOCAR-a məxsus neft bazasına endirdiyi hava zərbələri müzakirə edilib. Hər iki lider Rusiya Silahlı Qüvvələrinin fəaliyyətindən narahatlığını ifadə edib.***

Caliber.Az-ın etibarlı mənbələrdən əldə etdiyi məlumata görə, əgər Rusiya Azərbaycanın maraqlarına qarşı aqressiv siyasətini davam etdirərsə, rəsmi Bakı öz arsenalında olan silahların Ukraynaya tədarükünə qoyulan embarqonun götürülməsi məsələsini nəzərdən keçirməyə başlayacaq.

Politoloq Elxan Şahinoğlu deyib ki, Azərbaycanın Ukraynaya silah satışına embarqonu qaldıra biləcəyi anonsunun verilməsi tam yerindədir: "Rusiya ordusu Kremlin təlimatıyla Azərbaycan Dövlət Neft Şirkətinin Ukraynadakı yanacaq mərkəzlərini hədəf alıb. Əvvəlcə Azərbaycan qazını Ukraynaya nəql edən boru xəttinə, bir neçə gün sonra isə Dövlət Neft Şirkətinin Odessa şəhərindəki yanacaq mərkəzinə raket zərbələri endirdilər. Bununla Kreml Azərbaycanla onsuz da gərgin olan münasibətləri daha da gərginləşdirib. Dövlət Neft Şirkətinin xarici ölkədəki yanacaq mərkəzinə zərbə endirmək və orada çalışan insanlara zərər yetirmək faktiki Azərbaycanı hədəf almaq deməkdir. Buna görə də rəsmi Bakı adekvat addımlar barədə düşünmək məcburiyyətindədir. Belə vəziyyətdə Azərbaycanın Ukraynaya silah satışına embarqonu qaldıra biləcəyi anonsunun verilməsi tam yerindədir".

Xatırladaq ki, Rusiya ordusu son vaxtlar Ukrayna ərazisində Azərbaycana məxsus enerji obyektlərinə ardıcıl zərbələr endirir. Bu vəziyyət Bakını cavab addımlar atmağa məcbur edir və iki ölkə arasındakı münasibətlərin daha da gərginləşməsinə səbəb ola bilər.

Avqustun 7-dən 8-nə keçən gecə Rusiya qoşunları Ukraynanın Odessa vilayətində yerləşən SOCAR neft bazasına hücum edib. Hücum zamanı beş "Şahed" kamikadze dronu obyektə istiqamətləndirilib, nəticədə yanğın baş verib və dizel boru kəməri zədələnib. SOCAR-ın dörd əməkdaşı ağır yaralanıb. Bu, son həftələrdə Azərbaycana məxsus obyektlərə edilən ikinci hücumdur.

Bundan əvvəl Rusiya, 28 iyunda Azərbaycandan Ukraynaya qaz nəqlinin başladığı Trans-Balkan qaz kəmərinin mühüm hissəsi olan Orlovka yaxınlığındakı qazpaylayıcı stansiyanı hədəfə almışdı.

# Bakıda dəhşətli qətl hadisəsi

## 34 yaşlı kişi öldürüldü, meyiti doğranaraq Ağsuda dağlıq əraziyə atıldı



***Bakıda 34 yaşlı kişi qətlə yetirilib. Hurriyyet.az xəbər verir ki, hadisə Nəsimi rayonunda münaqişə zəminində qeydə alınıb. 1977-ci il təvəllüdlü Fazil Feyzullayev kirayədə yaşadığı evdə onunla birgə yaşayan Tərtər rayon sakini 1991-ci il təvəllüdlü İsgəndər Əliyevi küt alətlə qətlə yetirib. Daha sonra meyiti hissələrə ayırıb sellofan torbalara yığaraq avtomobildə Ağsu rayonuna apararaq dağlıq ərazidə iki müxtəlif yerə atıb.***

Qeyd edək ki, F.Feyzullayev polis tərəfindən keçirilən əməliyyat zamanı tutulub. Bakıda tamah niyyəti ilə törədilən sözügedən qətl hadisəsi üzrə iki şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, avqustun 8-də paytaxtın Nəsimi rayon sakini 1991-ci il təvəllüdlü İsgəndər Əliyevin yaşadığı evdə qətlə yetirilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Araşdırmalarla, avqustun 4-də, gecə saat 4 radələrində Fazil Feyzullayev və Ülvi Abasovun qabaqcadan əlbir olaraq tamah niyyəti ilə kirayədə birlikdə yaşadıqları İsgəndər Əliyevi yatarkən qətlə yetirmələrinə, daha sonra Fazil Feyzullayevin cinayəti gizlətmək məqsədilə meyiti hissələrə ayırıb sellofan paketlərə yığaraq Ağsu rayonuna gedib müxtəlif yerlərə tullamasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Nəsimi rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.1 (bir qrup şəxs tərəfindən adam öldürmə), 120.2.5 (tamah məqsədi ilə adam öldürmə), 120.2.9 (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə) və 245-ci (meyit üzərində təhqiredici hərəkət) maddələri ilə cinayət işi istintaq olunur.

Toplanmış sübutlar əsasında Fazil Feyzullayev və Ülvi Abasov təqsirləndirilən şəxs qismində cəlb olunub, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə ibtidai istintaq aparılır.

***KƏNAN***

# Azərbaycanlılar kütləvi halda Rusiyadan qovulur

## Təkcə bir vilayətdən 30-dan çox azərbaycanlı deportasiya olunub

***Rusiyanın Sverdlovsk vilayətindən 30-dan çox azərbaycanlı deportasiya olunub.***




Bu barədə Rusiyanın Federal Məhkəmə İcraçıları Xidmətinin hesabatından məlum olur.

Bildirilir ki, yanvar-iyul ayından vilayətdən təxminən 1000 qanunsuz miqrant çıxarılıb. Onların əksəriyyətini Mərkəzi Asiya ölkələrinin (Tacikistan, Özbəkistan, Qırğızıstan) vətəndaşları təşkil edir. Deportasiya edilənlərin siyahısında həmçinin 33 azərbaycanlı var. Gürcüstan, Misir və Çindən olan az sayda xarici vətəndaş (1-6 nəfər) da regionun ərazisini tərk etməyə məcbur olublar.

Qurumun məlumatına görə, onlar Rusiyaya işləməyə gəliblər, lakin ölkə ərazisində qanuni əsaslar olmadan qalıblar. O da vurğulanır ki, miqrantlar prosedur müddətində əcnəbi vətəndaşlar üçün xüsusi müvəqqəti saxlama mərkəzlərində saxlanılıblar.

# Sərhədçinin intiharı ilə bağlı şok faktlar

## Əsgər Bəkiyevin cibindən çıxan məktub hər şeyi ortaya qoydu...

***Dövlət Sərhəd Xidmətinin Naxçıvanda yerləşən N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Bəkiyev Kənan Seymur oğlunun odlu silahdan atəş açmaqla özünü öldürməyinin təfərrüatı məlum olub.***



Hurriyyet.az musavat.com-a istinadən xəbər verir ki, əsgərin cibindən çıxan məktubda yazılırmış: "Anam, atam, məni bağışlayın. Mən demişdim ki, bu insana dözə bilmirəm. Allaha əmanət olun. Sizi çox sevirəm. Haqqınızı halal edin. Bəkiyev".

İstintaqla müəyyən edilib ki, Bəkiyev zastava rəisi, baş leytenant Tofiq Məmmədovun qanunsuz əməlləri nəticəsində canına qəsd edib. Baş leytenant barəsində açılan cinayət işi zamanı müəyyən edilib ki, təkcə Bəkiyev yox, bir neçə əsgər zabitin qanunsuz hərəkətlərinin qurbanı olub.

Belə ki, əsgərlər arasında soyuq su içən, əlindən qələm düşən, sıra baxışında kiçik də olsa, səhv edən əsgərlər baş leytenant tərəfindən döyülüb, təzyiqlərə məruz qalıb.

Bəkiyev xidmətdə olan zaman baş leytenant tərəfindən çoxsaylı təzyiqlərə məruz qalıb. Komandir yol verdiyi hər xırda nöqsana görə mütəmadi olaraq onun ünvanına nalayiq ifadələr işlədib, ləyaqətini alçaldıb, amansız rəftar edib. Əsgərin yazdığı məktubdan belə başa düşülür ki, ailəsinə bu barədə əvvəllər də məlumat veribmiş.

Mərhum intiharında bir gün əvvəl komandir tərəfindən sıra önünə çıxarılıb. Bəkiyev yol verdiyi nöqsanlara görə komandir tərəfindən təhqirlərə məruz qalıb, şəxsiyyəti alçaldılıb. Səbəb kimi rabitə vasitələrinin üzlüklərinin olmamasını, icazəsiz yeməkxanaya getməsini əsas gətirən komandir onun ünvanına nalayiq ifadələr işlədib. Bununla kifayətlənməyən komandir Kənanın əsgər yoldaşının doğum günü şənliyini yarıda saxlayıb və tortun kəsilməsinə icazə verməyib. Həmçinin Bəkiyevin xidmətdə olduğu otaqdakı oturacağı da götürərək onu cəzalandırıb ki, xidmət zamanı ayaq üstə dayansın.

Bütün bunlar Kənanın intihar qərarı verməsinə səbəb olub. Yazdığı məktubu cibinə qoyan əsgər zastava gözətçisi xidmətində olan yoldaşının yanına gedib. Əsgər yoldaşına silahı zastava rəisinin istədiyini deyərək ondan alıb. Bəkiyev götürdüyü silahla çənə nahiyəsindən bir dəfə atəş açmaqla həyatına son qoyub.

Baş leytenanat məsuliyyətə cəlb edilərək həbs edilib. Onun barəsində 6 il 6 ay həbs cəzası təyin edilib. Təqsirləndirilən şəxsin şikayətləri təmin edilməyib və Ali Məhkəmə hökmü qüvvədə saxlayıb.

# Qusarda 67 yaşlı kişi qaynını öldürdü, arvadına xəsarət yetirdi

***Qusar rayonunda qətl törədilib. APA xəbər verir ki, hadisə avqustun 10-da saat 05 radələrində qeydə alınıb. 1958-ci il təvəllüdlü Əlibəyov Vəkil Saday oğlu qaynı 57 yaşlı Şirin Şəmsəddin oğlu Ömərovu balta ilə qətlə yetirib. O, həmçinin 49 yaşlı arvadı Şəlalə Ömərovaya xəsarət yetirib.***



Polis əməkdaşları tərəfindən cinayət əməlini törətməkdə şübhəli bilinən 67 yaşlı V.Əlibəyov saxlanılıb.

Qeyd edək ki, Qusar rayonunda törədilən qətl hadisəsinin təfərrüatları məlum olub. Məlumata görə, hadisə avqustun 10-da gecə saat 4 radələrində Yuxarı Tahircal kəndində qeydə alınıb. Rayonun Gican kənd sakini, 1958-ci il təvəllüdlü Vəkil Əlibəyov bir il əvvəl 1977-ci il təvəllüdlü Şəlalə Ömərova ilə tanış olub və onunla sevgi münasibətləri yaşayıb. Bir müddətdən sonra V.Əlibəyov Ş.Ömərovanı götürüb qaçıb və yaşadığı Gican kəndində birgə yaşayıb. Təxminən bir aydan sonra isə Ş.Ömərova Yuxarı Tahircal kəndinə qayıdıb və o, qardaşının evində məskunlaşıb. V.Əlibəyov isə mütəmadi olaraq Yuxarı Tahircal kəndinə gələrək, Ş.Ömərova ilə yaşayırmış.

Məlumata görə, son günlər cütlük arasında mübahisələr yaşanırmış. Hadisədən bir gün əvvəl də V.Əlibəyovla Ş.Ömərova arasında mübahisə baş verib. Elə həmin gün gecə saatlarında V.Əlibəyov evdən götürdüyü balta ilə Ş.Ömərovaya yatdığı yerdə zərbələr endirib. Səsə yuxudan oyanan Ş.Ömərovanın qardaşı Şirin Ömərov ona mane olmaq istəsə də, alınmayıb. V.Əlibəyov qadının qardaşını da balta ilə qətlə yetirib.

Məlumatda bildirilir ki, Ş.Ömərova fiziki qüsurlu olub və o, V.Əlibəyovdan əvvəl 11 dəfə ərdə olub. İlk həyat yoldaşından üç övladı olan Ş.Ömərovanın digər ərlərindən övladı olmayıb. V.Əlibəyov isə onun qeyri-rəsmi yaşadığı 12-ci əri olub.

***KƏNAN***

# Qələbə və sülhün düşünən lideri...

## İlham Əliyevin liderliyi Azərbaycanın inkişaf yolunda dayanıqlı və qətiyyətli addımlar atmasının əsas təminatı kimi qalır

***Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin uğuru yalnız iqtisadi resurslar və hərbi güc ilə deyil, həm də strateji düşüncə və elmi yanaşma qabiliyyəti ilə müəyyən olunur. Azərbaycan Prezidenti İlham Əliyevin son illərdə əldə etdiyi siyasi, hərbi və diplomatik nailiyyətlər göstərir ki, milli maraqların qorunmasında əsas təminat məhz bu iki amilin - elm və biliyin - düzgün sintezindədir.***



***Zahid MƏMMƏDOV***
***Professor,***
***iqtisad elmləri doktoru***

44 günlük Vətən müharibəsində qazanılan qələbə təsadüfi hərbi uğur deyildi. Bu, illərlə aparılan sistemli hazırlığın, beynəlxalq hüququn incəliklərinin dəqiq tətbiqinin, hərbi texnologiyaların optimal istifadəsinin və diplomatik masada sərt, amma rasional mövqenin nəticəsi idi. Sun Tzunun dediyi kimi, "Müharibəni qazanan, döyüş başlamazdan əvvəl qazanandır" - Azərbaycan rəhbərliyi də qələbəni məhz döyüş meydanına çıxmazdan əvvəl planlaşdırmışdı.

### Strateji liderlik- zəfərin kompasıdır

Elmi tədqiqatlar göstərir ki, liderin özünə güvənməsi həm strateji qərarların dəqiqliyini artırır, həm də komandanın motivasiyasını yüksəldir. Sosial-psixoloji baxımdan, özünə inamlı lider çətin vəziyyətlərdə daha soyuqqanlı və düşünülmüş addımlar ata bilir, riskləri düzgün qiymətləndirərək, imkanları maksimum dərəcədə dəyərləndirir.

Xatırlayaq, 2008-ci ildə Gürcüstan prezidenti Mixeil Saakaşvili rus qoşunlarının Qori şəhərinə daxil olması zamanı əzələ zəifliyi və çaşqınlıq nümayiş etdirirdi - qalstukunu çeynəməsi isə onun psixoloji gərginliyinin açıq simvolu idi. Bu hadisə liderin özünə inamının, streslə mübarizədə zəifliyinin açıq göstəricisi kimi qəbul edildi və dövlətin mövqeyinə ciddi zərbə vurdu.

Əksinə, İlham Əliyev çətinliklər qarşısında soyuqqanlılığını qoruyaraq, bilik və strateji düşüncə ilə hərəkət etmiş, milli maraqları prioritet qoymuşdur. Onun qətiyyəti və özünə inamı komandanı ruhlandırmış, ordunun və xalqın həmrəyliyini təmin etmişdir. Bu nümunə göstərir ki, liderin uğuru yalnız resurslarla deyil, həm də psixoloji və strateji hazırlıqla bağlıdır.

Bu yanaşma həm idarəetmə elmləri, həm də beynəlxalq münasibətlər nəzəriyyəsində təsdiqlənir: liderin özünə inamı komanda effektivliyini artırır və uzunmüddətli uğurları təmin edir. İlham Əliyevin nümunəsi isə müasir dövrdə strateji liderlik anlayışının canlı təcəssümüdür. Napoleon Bonapartın "Strateji elm - zəfərin kompasıdır" fikri bu kontekstdə Azərbaycanın siyasətinə tam uyğundur.

**44 günlük Vətən müharibəsində qazanılan qələbə yalnız hərbi gücün deyil, həm də ədalət və hüquq prinsipinin zəfəri kimi**

İlham Əliyev- məhz Qarabağ uğrunda savaşın haqq və hüquq müstəvisində olduğunu beynəlxalq aləmə inandıra bildi. O, təkcə hərbi sahədə deyil, diplomatik və hüquqi platformalarda da Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Bu addım, həm Azərbaycan xalqının milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəsinin beynəlxalq hüquq çərçivəsində haqlı olduğunu təsdiqlədi, həm də işğala son qoyulmasının zəruriliyini dünyaya çatdırdı.

Bu strategiya nəticəsində beynəlxalq ictimaiyyət münaqişənin ədalətli həllinə daha ciddi yanaşmağa başladı. İlham Əliyevin prinsipial mövqeyi və strateji zəkanı Azərbaycanın diplomatik arenada mövqeyini gücləndirdi, ölkənin hüquqi baxımdan haqlı olduğunu rəsmən təsdiqlətdi. Nəticədə, 44 günlük Vətən müharibəsində qazanılan qələbə yalnız hərbi gücün deyil, həm də ədalət və hüquq prinsipinin zəfəri kimi qəbul edildi.

Bu, həm də göstərdi ki, müasir münaqişələrdə güc və hüquq əl-ələ verərək uğur əldə olunur və İlham Əliyevin siyasəti məhz bu tarazlığı ustalıqla qurdu.

İlham Əliyev özü irəli gedirdi - həm siyasi, həm də strateji mənada. O, Azərbaycanı çətin və mürəkkəb şəraitdə məqsədyönlü şəkildə gələcəyə doğru aparırdı. Onun liderliyi təkcə qərar verməkdən ibarət deyildi, həm də nümunə göstərmək, inam yaratmaq və milləti irəli aparmaq idi.

Müharibə və sülh dönəmlərində İlham Əliyevin irəli atılan addımları, uzaqgörən strategiyası və qətiyyəti Azərbaycanı həm daxildə, həm də beynəlxalq arenada möhkəmləndirdi. O, daim ön sırada dayanaraq çətinlikləri qabaqladı, riskləri dəyərləndirdi və ölkənin milli maraqlarını ən yüksək səviyyədə qorudu.

Bu irəli yürüyüş yalnız bir şəxsiyyətin deyil, bütöv bir millətin gələcəyinə inamın təcəssümü oldu. İlham Əliyevin liderliyi Azərbaycanın inkişaf yolunda dayanıqlı və qətiyyətli addımlar atmasının əsas təminatı kimi qalır.

**Müasir müharibələrdə mükəmməl planlaşdırma, çevik hərbi strategiya və maliyyə resurslarının səmərəli idarə olunması uğurun əsas kimi**

Ermənistan 2016-cı ildən başlayaraq təxribatlara sistemli şəkildə əl atırdı və bölgədə gərginliyi artırırdı. Bu təxribatlar Azərbaycanın ərazi bütövlüyünə, sülhə və sabitliyə ciddi təhlükə yaradırdı. İlham Əliyev isə düşmənin bu addımlarına qarşı soyuqqanlı və strateji cavablar verdi. O, kontratakadan məharətlə istifadə edərək, Azərbaycanın hərbi qüvvələrini ən optimal şəkildə yönləndirdi və düşmənin zəif nöqtələrini dəqiq hədəflədi.

Bu taktiki üstünlük sayəsində düşmən hər tərəfdən darmadağın edildi, onun müdafiə xətlərində ciddi sarsıntılar yarandı və planlaşdırılmış təxribatlar iflasa uğradı. Əliyevin rəhbərliyi altında aparılan hərbi əməliyyatlar yalnız fiziki məğlubiyyət deyil, həm də düşmənin mənəvi və strateji zərbəsi oldu.

Müharibələrdə təbii olaraq panika və çaşqınlıq yaşanır, amma İlham Əliyev bu mənada misilsiz nümunə göstərdi - o, orduda və cəmiyyət arasında panikaya bir saniyə belə imkan vermədi. Onun liderliyi altında komandirlər və əsgərlər tam informasiya təminatı ilə təmin edildi, hər kəs konkret tapşırıqlarını dəqiq bilirdi və əminliklə hərəkət edirdi. Bu sistemli və nizamlı yanaşma düşmənin hətta bir dəfə belə belə bir sənədi də keçirməsinə imkan vermədi.

Əksinə, Ermənistan tərəfi ilk gündən panikaya düşdü, rəhbərliyində qarışıqlıq, məlumat çatışmazlığı və koordinasiya problemləri baş qaldırdı. Bu daxili xaos və etibarsızlıq düşmənin döyüş qabiliyyətini ciddi şəkildə zəiflətdi və Azərbaycan ordusunun irəliləməsini asanlaşdırdı.



İlham Əliyevin soyuqqanlılığı və mükəmməl idarəetmə bacarığı sayəsində, Azərbaycan tərəfi həm strateji, həm taktiki üstünlüyü ələ aldı və müharibənin gedişində daim təşəbbüsü əlində saxladı. Bu, yalnız hərbi üstünlük deyil, həm də psixoloji döyüşün qələbəsi idi. Ermənistanın panikası, Azərbaycan tərəfinin isə qətiyyətli və nizamlı hərəkəti bu fərqi daha da açıq şəkildə ortaya qoydu.



Bundan başqa, İkinci Qarabağ müharibəsində Azərbaycan əsgəri heç vaxt korluq və maddi təminatsızlıqla üzləşmədi. Bu, İlham Əliyevin uzaqgörən və dəqiq maliyyə planlamasının nəticəsi idi. O, müharibədən öncə ordu üçün zəruri silah-sursatın, texnikanın və logistik dəstəyin təmin olunması üçün ciddi resursları vaxtında cəmlədi. Dövlət büdcəsində müdafiə xərclərinə ayrılan vəsait həm kadr hazırlığına, həm də müasir hərbi texnologiyaların alınmasına yönəldildi. Eyni zamanda, döyüş zamanı logistika zənciri fasiləsiz işləyərək, ön cəbhədəki hərbçilərin ehtiyaclarını qısa zamanda təmin etdi. Bu maddi təminatın gücü əsgərlərin yüksək döyüş ruhu və fiziki gücü ilə birləşərək, qələbənin mühüm əsasını yaratdı. İlham Əliyevin strateji planlaması həm hərbi, həm də iqtisadi baxımdan Azərbaycan ordusunun gücünü artırdı və heç bir Azərbaycan əsgərinin ehtiyacının gözardı edilməməsini təmin etdi.

Beləliklə, müasir müharibələrdə yalnız taktiki və strateji biliklər deyil, həm də maliyyə dəstəyi və resursların səmərəli idarə olunması uğurun təməlində dayanır. Azərbaycanın bu sahədə əldə etdiyi uğur, İlham Əliyevin bütün prosesləri kompleks və sistemli idarəetmə qabiliyyətinin bariz nümunəsidir.

Bu nümunə göstərir ki, qətiyyətli liderlik, mükəmməl planlaşdırma və çevik hərbi strategiya müasir müharibələrdə uğurun əsas amilləridir. İlham Əliyevin idarəçiliyi Azərbaycanın regional mövqeyini möhkəmləndirərək, uzun müddətli sülh və sabitliyin təminatına xidmət etdi.

### Sülh imzalanmasının uğurları

Vaşinqtonda imzalanan sülh sənədi isə bu strateji yanaşmanın davamıdır. Burada məqsəd yalnız hərbi üstünlüyü qorumaq deyil, həm də regionda uzunmüddətli iqtisadi sabitlik və geosiyasi balans yaratmaqdır.

2025-ci ilin 8 avqust tarixində Ağ Evdə keçirilən mərasimdə ABŞ prezidenti Donald Trump, Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan sülh sazişini imzaladılar. Bu sənəd Ermənistan və Azərbaycan arasında 37 illik münaqişəni bitirməyi hədəfləyir. Saziş Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasındakı maneəsiz nəqliyyat koridorunu yaradır. Bu dəhliz vasitəsilə Avropa və Cənubi Qafqaz arasında yeni tranzit əlaqələri təmin ediləcək. Eyni zamanda yeni nəqliyyat və enerji imkanları regionda yenidənqurma və inteqrasiya üçün zəmin yaradacaq. Bu, Azərbaycanın tranzit ölkə statusunu möhkəmləndirir. Dəhliz vasitəsilə Türkiyə-Azərbaycan-Mərkəzi Asiya-Çin marşrutu güclənir, həm Bakı-Tbilisi-Qars dəmir yolu, həm də Orta Dəhliz ilə inteqrasiya artır. Beynəlxalq tranzit rüsumları, logistika xidmətləri və yeni liman bağlantıları dövlət büdcəsinə əlavə gəlir gətirəcək. Zəngəzur dəhlizi ilə Naxçıvan blokadası aradan qaldırılır, bu da yerli iqtisadi potensialı artırır və regionu Azərbaycanın iqtisadi sisteminə sıx inteqrasiya edir

ABŞ-ın bu prosesi vasitəçilik etməsi beynəlxalq reallıqda Azərbaycanın sülh gündəliyinin tanınmasına səbəb oldu. 1992-ci ildən bloklanan 907-ci düzəlişin dayandırılması isə strateji tərəfdaşlığa yeni imkanlar açdı.ABŞ-ın Azərbaycana tətbiq etdiyi məhdudiyyətlərin ləğvi, ABŞ dövlət maliyyələşdirməli layihələrdə Azərbaycan şirkətlərinin iştirakını mümkün edir. ABŞ-ın OPIC (Overseas Private Investment Corporation) və EXIM Bank kimi institutlarının Azərbaycanda fəaliyyətinə geniş yol açılır.Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı, bərpa olunan enerji (su, günəş, külək) və turizm layihələri üçün xarici investorların iştirakı gözlənilir.Bakı-Vaşinqton xəttindəki yaxınlaşma Azərbaycanın enerji təhlükəsizliyi üzrə beynəlxalq danışıqlarda mövqeyini gücləndirir. Sülh və sabitlik reytinq agentliklərinin Azərbaycanın kredit balını artırmasına yol aça bilir. Zəngəzur dəhlizi ilə Azərbaycan-Türkiyə-Mərkəzi Asiya-Çin marşrutları arasında daha effektiv əlaqələr qurulacaq. Bu, logistika xərclərini azaltmaqla yanaşı, daşınma müddətlərini də qısaldır.

### Qələbədən Sülhə - Diplomat-Lider

İlham Əliyev 44 günlük müharibəni yalnız qələbə kimi deyil, həm də davamlı sülhün bünövrəsi kimi istifadə etdi. Vaşinqton səfərində onun sülh gündəliyinin ABŞ tərəfindən tanınması, Zəngəzur dəhlizinin hüquqi etibarı və strateji əməkdaşlıq mexanizmlərinin yaradılması kimi addımları Azərbaycanın mövqeyini beynəlxalq səviyyədə gücləndirdi. Bu gedişlər, hərbi qələbənin sonra sülhə çevrilməsi istiqamətində həm daxili, həm də xarici siyasətdə skilful diplomatik fəaliyyətin qabaqcıl nümunəsidir.

Azərbaycan modeli göstərdi ki, XXI əsrdə dövlət rəhbərinin gücü yalnız ordunun sayında və ya büdcənin həcminə görə ölçülmür. Əsl güc - biliyi əməli strategiyaya çevirmək, elmi yanaşmanı milli siyasətə tətbiq etmək və dəyişən beynəlxalq şərtlərdə doğru istiqaməti tapmaq bacarığıdır. Bu, həm müharibədə, həm də sülh prosesində qələbənin əsas təminatıdır.

# “Kapital Bank” dələduzlarla əlbir işləyir?

## Müştərinin hesabından pul çıxaran kibercinayətkarların adı niyə gizli saxlanılır?




***Xətai rayonu, Polad Həşimov küçəsi, bina 37, mənzil 49 ünvanında yaşayan Mustafayev Feyruz Əjdər oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Kibercinayətkarlıqla üzləşən şikayətçi “Kapital Bank”ı ittiham edir:***

“Mən, Mustafayev Feyruz Əjdər oğlu, yazaraq bildirirəm ki, 7-8 ay öncə “Kapital Bank”dan “Birkart” kredit kartı aldım. Keçən ayın 7-də, saat 1:30-da, yəni gecənin yarısında “Leo bank” müştərisi olduğunu bildirən və tanımadığım bir şəxs tərəfindən 3 mesaj gəldi. Qısa müddətdə, yəni arxasınca “Kapital Bank”dan mesaj gəldi ki, “hörmətli müştəri, sizi təbrik edirik, əməliyyatınız uğurla başa çatmışdır”. Mən, dərhal “Birbank” proqramını açdım, gördüm ki, mənim kartımdam 3 dəfə 200 manat pul çıxarılıb (Ümumilkdə 600 manat) və “Leo Bank”a köçürülüb. Mən dərhal kartı blokladım və “Kapital Bank”ın qaynar xəttinə zəng edib şikayətimi bildirdim. Dedilər ki, dərhal axtarışa başlayacaqlar. Oğurluq olduğunu, hətta köçürülən kartın nömrəsinin də göründüyünü bildirdilər.

Səhəri gün polisə müraciət etdim. Polis əməkdaşı da bildirdi ki, “Kapital Bank”ın əlindən bezmişik, elə dələduzlarla bacara bilmirik, ən yaxşısı siz məhkəməyə müraciət edin.

Bank isə sorğulara cavab vermir. Bankın baş ofisinə getdim. Yenə də oğurluq olunduğunu dilə gətirdilər. Onu da dedilər ki, biz əlimizdəki məlumatları ancaq məhkəməyə verə bilərik.

Bank əməkdaşına sual verdim ki, dələduzu tapmaq sizə maraqlı deyil? Dedi yox, bizim pulumuzu borclu tərəf ödəyir.

İndi faizlə birlikdə 700 manat pul ödəməliyəm. Tək yolum məhkəməyə müraciət etməkdir. O zaman da rüsüm və vəkil ödənişi tapmalıyam. Axı, bank niyə oğrunun tapılmasında maraqlı deyil? Mən fikirləşirəm ki, “Kapital Bank”ın belə bir “oğru bandası” var”.

***“Hürriyyət”***

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# Xanlarovanın şirkəti Şərur sakininin torpağını zəbt edib

## İsgəndər Mahmudov: “Ali Məhkəmənin qərarını sayan yoxdur”

***Şərur rayonu, Muğancıq Mehrab kənd sakini Mahmudov İsgəndər Məhəmməd oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, xalq artisti Zeynəb Xanlarovanın şirkəti tərəfindən onun torpaq sahəsi zəbt edilib:***



“Mən, Mahmudov İsgəndər Məhəmməd oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

2004-cü ildə Bakı şəhəri, Səbail rayonunda 170 kvadrat metr qeyri-yaşayış sahəsi olan ev aldım. 2005-ci ilin mart ayında Babayev Məhəmməd Əhmədağa oğlu zəng edib bildirdi ki, “biz həmin yeri almışıq, istəyirsən yerin pulunu sənə verək”.

Qeyd edim ki, həmin ərazini alan şirkətin adı “NOE” MMC-dir. Bu şirkət Zeynəb Xanlarovaya aiddir. Həmin ərazi 280 kvadrat metr idi. Mənim payıma düşən isə 170 kvadrat metr ərazi idi.

Mənə təklif etdilər ki, gəl Bakı şəhərinə, burada müqavilə imzalayaq. Mən 3 gün Bakıda qaldım, möhürü gətirib çıxartmadılar. Odur ki, Şərura qayıtmalı oldum.

Bir müddət sonra gələndə gördüm ki, mülkümü sökübdağıdıblar. Uzun mübahisələrdən sonra dedilər ki, “gözlə, öz



ərazini tikək verək”. Bir neçə ilə bina hazır oldu. Yenə mənə oyun qurdular, aldatdılar. Şirkəti məhkəməyə verdim.

2017-ci ildə Zeynəb Xanlarova deputat seçiləndə Milli Məclisə məktub ünvanladım. Bu günə qədər də Zeynəb Xanlarova məktublarıma cavab vermir. Məhkəmələri udmuşam, amma mənə aid olan ərazini vermirlər, mənimsəyiblər.

2025-ci il aprel ayının 26-da Ali Məhkəmə də qərar çıxardı. Məhkəmə qərar verdi ki, qarşı tərəfə dəyən ziyan ödənilsin. Amma əhkəmənin qərarını sayan yoxdur.

Özüm 1991-1992-ci illərdə Sədərək rayonunda gedən döyüşlərin iştirakçısı olmuşam. Hazırda 2-ci qrup əlilliyim var. Sədərəkdə Ermənilərə bir qarış torpaq vermədik. Amma öz vətənimin adamı əlimdən mənə məxsus olan torpaq sahəmi alıb”.

***Hazırladı: Jalə FAMİLQIZI***

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# Xanım jurnalist Prezidentdən ev istəyir

## Rəhimova Rahidə: “28 ildir övladımla birlikdə ağır şəraitdə yaşayıram”




***Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, ev 32, mənzil 6-da yaşayan Rəhimova Rahidə Məcnun qızı tərəfindən “Hürriyyət” qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət edir:***

“Cənab Prezident!

Hörmətli Mehriban xanım!

Yazıb Sizə bildirirəm ki, mən, Rəhimova Rahidə Məcnun qızı, Azərbaycan Jurnalistlər Birliyinin üzvüyəm. Hazırda işsizəm. Bir qız övladımla birgə evsiz qalmışıq.

Səbail rayon sakini kimi 2004-cü ildən ev növbəsindəyəm.

Sizin jurnalistlərə və ictimai-sosial sahədə fəaliyyət göstərən şəxslərə göstərdiyiniz diqqət və qayğını daim minnətdarlıqla izləyirəm. Sizin birbaşa tapşırığınızla jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün mütəmadi olaraq evlər verilir. Lakin təəssüf ki, mən 28 ildir övladımla birlikdə ağır şəraitdə yaşayan vətəndaş olaraq, bu günə kimi mənzillə təmin olunmamışam.

Bu illər ərzində dəfələrlə aidiyyəti qurumlara müraciət etsəm də, hər dəfə müxtəlif bəhanələr gətirərək, “növbədə məndən əvvəl olanların olduğunu” deyirlər.

Bu illər ərzində Səbail rayon İcra Hakimiyyətinə 4-cü icra başçısı təyin olunur, lakin mənim problemim hələ də həllini tapmamışdır.

Yuxarıda qeyd etdiklərimi nəzərə alaraq, Sizdən xahiş edirəm ki, övladımla birgə yaşamağım üçün mənzillə təmin olunmağıma göstəriş verəsiniz”.

***Hazırladı: Jalə FAMİLQIZI***

# ““Azərişıq” vətəndaşlara zülm edir”

## Zərdab sakini: “Bizi məcbur edirlər ki, çıxıb öklə başçısına iradımızı bildirək”

***Zərdab rayonu, Körpükənd sakini Əhmədov Əhmədiyə Məhsət oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Ə.Əhmədov “Azərişıq” rəhbərliyindən şikayət edir:***




“Mən, Əhmədov Əhmədiyə Məhsət oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Qeyd edim ki, mən Zərdab rayonunda “Azərişıq”ın paylayıcı elektirik şəbəkəsindən şikayətçiyəm. Belə ki, 22.07.2025-ci il tarixdə, təxminən saat 12:00 radələrində 3 nəfər “Azərişıq” nümayəndəsi gələrək, heç bir əsaslı səbəb göstərmədən, sayğacı dəyişiblər. Satış şöbəsinin müdiri Elburus müəllim və müavinləri Dilşad və Xəlil - bizim sahəyə baxmayan şəxslər, heç bir akt tərtib etmədən sayğacı dəyişib, sakitcə iş-güclərinin arxasıyca gediblər.

Bundan 2 gün sonra gecə evdə işıqlar söndü. Həmin vaxt mən evdə olmamışam. Evdə xəstə anam var. Zəng vurub bildirib ki, qonşuların işığı yanır, amma bizimki sönüb...

Mənə məlumat veriləndə fikirləşdim ki, ola bilər, ödənişin vaxtıdır. Ödəniş etməyə çalışsam da, mümkün olmadı. (“məlumat tapılmadı” yazılırdı). Satış şöbəsinin müdirinin əlaqə nömrəsinə zəng vurub, məlumatı dəqiqləşdirdim. Bildirdim ki, yaratdıqları problemi aradan qaldıra bilmirəm. Elbrus müəllim isə bildirdi ki, sistemə oturmayıb, problem bu səbəbdən yaranıb.

“Biz sakinlərə niyə belə bir problem yaradırlar”, - sualı isə cavabsız qaldı. Həmçinin, o, bildirdi ki, “Mllion” aparatı ilə sayğaca pul vurub, onu bərpa edə bilərsiz. Nə qoca, nə də cavan fikirləşirlər. “Sistemə pulunuzun nə vaxt oturub-oturmayacağı haqda isə heç nə deyə bilmərik”, - dedilər.

Belə çıxır ki, gecə saatlarında market sahibini yuxudan qaldırıb, pul vurmalıydım. Təəssüf ki, bu hərəkəti mən edə bilməzdim.

“Azərişıq” əməkdaşlarının etdiyi hərəkərin adı adı özbaşınalıqdır, vətəndaşlara zülm etməkdir. Biz vətəndaşları məcbur edirlər ki, çıxıb öklə başçısına iradımızı bildirək. Hər xırda problemdən ötrü onu narahat etməliyik? Digər nazirliklər, qurumlar “çox ciddi şəkildə məşğuldurlar”, heç bir şikayətə baxmağa halları yoxdur”.

***Hazırladı: Jalə FAMİLQIZI***

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

***Universitetdə dekan olmasının qarşısını almaq üçün nüfuzdan salmağa çalışdılar, üstəlik "qara piar"larla işdən uzaqlaşdırılmasına nail oldular***

***Tarixçi alim, attestatlı dosent, 26 ildən artıq ali təhsil sistemində nümunəvi pedaqoq, özünəməxsus elmi yanaşmaları olan tədqiqatçı kimi fəaliyyət göstərmiş Neyman Nərman oğlu Xasayev tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezidenti Mehriban Əliyevaya, Baş prokuror Kamran Əliyevə, Elm və Təhsil naziri Emin Əmirullayevə, eləcə də digər aidiyyəti qurumların rəhbərlərinə müraciət edən alimin məktubunu olduğu kimi dərc edirik:***



# Tanınmış alimə qarşı çirkin kampaniya

**(Əvvəli ötən sayımızda)**

Haşiyə olaraq qeyd edim ki, məhkəmə prosesinin gedişində məhkəmə materiallarına mənə guya dərs yükünün ayrılması barədə sənəd daxil edilsə də, lakin həmin dərs yükünü tədris etməyimin sübutu olaraq sentyabr ayı üçün nəzərdə tutulmuş öz imzamla təsdiqini tapmış nə mövzu təqvim planlarının surətləri, nə tədris edəcəyim çoxsaylı fənlərə dair hazırlayıb imzamla təsdiqləyərək kafedraya təqdim etdiyim sillabusların surətləri, nə də sentyabrda dərs apardığım qrupların jurnallarında imzamla təsdiqlənmiş mövzuların adı olan səhifələrin surətləri məhkəməyə verilməmişdir. Bu isə vəzifəli şəxs olan dekan A.Baxşəliyevin və kafedra müdiri S.Məhərrəmovanın həm, mənə qərəzli yanaşmalarının, həm sənəd saxtakarlığı ilə məşğul olmalarının, həm də məhkəməyə cinayət tərkibli yalan məlumat vermələrinin növbəti göstəricisidir. Belə olduqda mənə qarşı qara piar kampaniyasının fəal üzvü - Universitet Həmkarlar komitəsinin sədri Elmar Xəlilov əlverişli məqamdan sui-istifadə etməklə, məsələmi heç bir araşdırma aparmadan, məni dinləmədən, Həmkarlar Komitəsinin genişləndirilmiş iclasına çıxararaq, nəinki 40 ildən artıq həmkarlar ititfaqının üzvi olduğum üçün məni müdafiə etməli olduğu halda müdafiə etməmiş, əksinə, üzərimə yeriyərək əl qaldırmağa cəhd göstərmiş, iclas iştirkçılarının önündə ona "Azərbaycan sultanlıqları" adlı əsərimin elektron variantını oğurlayıb öz adına çap etdirməsinin cinayət əməli olduğunu xatırlatdıqdan sonra sarsılaraq geri oturdulsa da, lakin öz cinayətkar əməllərini davam etdirməklə qanunazidd formada Həmkarlar Komitəsi idarə heyəti üzvlərini əleyhimə aşkarana formada səs verməyə təhrik etməkdən də çəkinməmişdir".

Bütün bu qanunazidd prosedurlar başa çatdıqdan sonra, 2020-ci ilin 1 oktyabr tarixində hüquqi əsası olmayan, Universitetin keçmiş hüquqşünası, peşəsi üzrə savadsız olmasını bu əmri hazırlamaqla qabarıq formada büruzə verən və bu günə qədər bu ali təhsil ocağında yeganə hüquqdan dərs verən bir müəllim kimi tələbə və magistrantlar arasında hüququ nihilizmi yayamaqda davam edən Əminə Həsənovanın hazırladığı qanuna zidd bir əmrlə mənə zərrə qədər aidiyyəti olmayan 70 Ç maddəsi üzrə cinayətkarcasına işdən azad edilmişəm. Əmək Məcəlləsinin 186-cı maddəsində altından qara xətt çəkilməklə qəti şəkildə işçi üçün yazılı və şifahi xəbərdarlıq inzibati tənbeh forması deyil göstərildiyi halda, kobud qanun pozuntusuna yol verməklə mən yazılı və şifahi xəbırdarlıq hüquqi əsas kimi göstərilməklə işdən azad edilmişəm. Mənə heç bir vaxt şifahi xəbərdarlıq edilməyib və buna dair məhkəmə posesinin gedişində sənəd saxtakarlığı yolu ilə hazırlanmış iki sənəd məhkəmə materiallarına əlavə edilsə də, köhnə tarixlə hazılanmış bu sənədlərin hesabat kitabında əksini tapmasına dair sübut məhkəmə materiallarına daxil olunmamışdır. Yazılı xəbərdarlıq isə, 2018-ci ilin iyun ayında qara piar kampaniyasının üzvi Sarvan Bədəlovun dekan və Kafedra müdirinin məxvi göstərişi ilə fakultə müəllimləri arasında daima ən nümunəvi olmağımla fərqləndiyim Tələbə Elmi Cəmiyyətinin konfransında qəsdən məni əsəbləşdirməsi səbəbindən ürək-damar xəstəliyinə düçar olduğumdan bülletenin gec açılması ilə bağlı iki gün işə tam sağalmamağımdan irəli gələrək gec çıxmışam, buna görə həm, əmək haqqımdan tutulmalar olmuş, həm də, 2018-ci ilin iyun ayında mənə yazılı xəbərdarlıq edilmişdir.

Hansı ki, mən 2020-ci ilin 1 oktyabrında işdən azad edilən zaman hüquqi əsası olmayan bu yazılı xəbərdarlığın da müddəti iki il 3 ay idi ki, başa çatmış, hüquqi əhəmiyyəti olsa da belə, çoxdan öz hüquqi əhəmiyyətini itirərək qüvvədən düşmüşdü. İşdən çıxarılma əmrimdə zərrə qədər də, olsun, mənə aidiyyəti olmayan 70 Ç maddəsinin cinayətkarcasına, qərəzli formada şəxsimə şamil edilməsi faktı, 5 ildir ki, məni hər bir insana Allah tərəfindən bəxş edilmiş, beynəlxalq hüquqda, Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulmuş, əmək hüququmdan məhrum etdiyinə, nəinki, əmək hüququmdan ,hətta yaşayış minimumundan belə, məhrum etdiyinə görə, həm, Allah qarşısında bağışlanılması mümkün olmayan ağır günah, həm də, ağır cinayət əməli kimi dəyərləndirilərək Prokurorluq orqanları tərəfindən şəxsimə edilən mənəvi terror əməli kimi qiymətləndirilməlidir.

Əmək Məcəlləsinin 72 maddəsində göstərilir ki, işçi üzürlü səbəb olmadan işə gəlmədikdə, İşlədiyi müəssisənin əmlakını yandırdıqda, dağıtdıqda, işə mütamadi olaraq üzürsüz səbəbdən gecikdikdə, işə spirtli işki, uyuşdurucu maddə qəbul edib gəldikdə, öz iş yoldaşlarının əmək hüququnu, iş ahəngini pozduqda işçi töhmət, axırıncı dəfə xəbərdarlıq edilməklə şiddətli töhmət aldıqdan sonra, fəaliyyətinin nümunəviliyi əsas götürülməklə o, 70 Ç maddəsi ilə işdən azad edilə bilər. 70 Ç maddəsinin mənə cinayətkarcasına şamil edilməsinin yuxarıda qeyd edilən davamlı və yüksələn xətt üzrə inkişaf edən koryera yüksəlişimlə tamamı ilə ziddiyyət təşkil etməsini, işdən azad edilmə əmrimin hüquqi əsasa söykənmədiyini, eyni zamanda ya iş öhdəliklərini, ya da əmək funksiyasını yerinə yerinə yetirməməyə görə bir hüquqi əsasla deyil, iki hüquqi əsasla işdən azad edilməyimin kobud qanun pozuntusu oldunu bildiyim üçün, 2020-ci ilin oktyabrında qanuna müvafiq olaraq bir ay müddətinə mülki qaydada işə bərpa iddia ərizəsi ilə Sumqayıt Şəhər Məhkəməsinə şikayət ərizəsi vermişəm. İşə baxan hakim Rəşad Qoşqarlı Cinayət Məcəlləsində hakimlər üçün nəzərdə tutulmuş 295.1 maddəsinin tələblərini nəzərə almadan qeyri - müəyyən maraqlarını yetərincə təmin etməklə dekan A.Baxşəliyev və kafedra müdiri S.Məhərrəmova tərəfindən sabiq rektor E.Hüseynovu inandırmaqla köhnə tarixlə, hesabat kitabında öz əksini tapmayan, İşdən çıxarılma əmrimdə hüquqi əsas kimi verilməyən, əmək kitabçamda qeydə alınmayan, Universitetin keçmiş hüquqşünası Ə.Həsənovanın işə bərpa iddia ərizəmə etirazında istinad olunmayan, mənə axırıncı dəfə xəbərdarlıq edilməklə şiddətli töhmət verilməsindən ən azından 6 ay keçməsi vacib olduğu halda, axırıncı dəfə xəbərdarlıq edilməklə şiddətli töhmətin verilərsindən heç 4 ay keçməmiş SDU-nun ən nümunəvi pedaqoqu və nüfuzlu almi kimi Türkiyənin Aydın Adnan Menderes Universitetinə göndərilməyimlə və oradan yüksək səviyyəli sertfikatla geri qayıtmağımla, yuxarıda qeyd olunan karyera yüksəlişimin davamlı olması ilə qəti şəkildə ziddiyyət təşkil edən 2019-cu ilin 24 iyun ayında mənə guya axırıncı dəfə xəbərdarlıq edilməklə, şiddətli töhmət verilməsinə dair aydın şəkildə göründüyü kimi məhkəmə prosesinin gedişində tərtib olunmuş saxta bir əmri məhkəmə materiallarına əlavə edərək İşə bərpa iddia ərizəmi rədd edən yalançı qətnamə qəbul etmişdir.

Cinayət Məcəlləsinin 295.1. maddəsinin tələblərini pozmaqla yalançı qətnamə qəbul edib törətdiyi cinayətin izini itimək üçün, indi Binəqədi rayon məhkəməsində layiq olmadığı hakim vəzifəsini davam etdirən Rəşad Qoşqarlının 19 noyabr 2020-ci il tarixdə çıxardığı hüquqi əsası olmayan vəzifə səlahiyyətlərini aşmaqla qanunların aliliyini ayaqları altına altına atıb əzən yalançı qətnaməsindən verdiyim Apelyasiya şikayəti əsasında Sumqayıt Apelyasiya Məhkəməsinin sədri, Məhkəmə -Hüquq Şurasının layiqli üzvi Allahı başının üzərində görüb işi tam nəzarətə götürən cənab Tofiq Paşayevin səyləri nəticəsində məhkəməyə kənar təsirlərin qarşısı alınmış, nəticədə 2021-ci il 9 iyun tarixli qətnamə ilə ədalətli hakim Səyyad Qafari tərəfindən məcburi əmək haqqım ödənilməklə, işlədiyim Tarix və onun tədrisi metodikası kafedrasına işə bərpa olunmağım barədə qətnamə qəbul edilmişdir. Lakin məni öz layiq olmadıqları vəzifələrə təhlükə mənbəyi sayan Adil Baxşəliyev və Sona Məhərrəmova kassasiya şikayəti verdirib hüquqşünas Əminə Həsənovanın vasitəçiliyi ilə qeyri müəyyən maraqlarını təmin etdikləri Ali Məhkəmənin hakmi Mehparə Əhmədovanın CM-in 295.1. maddəsinin tələblərini pozmaqla 2021-ci ilin 26 noyabrında qəbul etdiyi yalançı qərarla hakim S.Qafarinin qəbul etdiyi ədalətli qətnaməni qismən ləğv etdirərək, işi yenidən Sumqayıt Apelyasiya məhkəməsinə qaytarmağa müəffəq olmuşlar. Yenidən Sumqayıt Apelyasiya məhkəməsində işə baxan daima öz qeyri-müəyyən şəxsi maraqlarını təmin etməsi ilə ad çıxarmış, lakin yüksək vəzifəli havadarları sayəsində bu günə qədər cəzasız qalaraq layiq olmadığı mötəbər hakimlik vəzifəsini davam etdirən ədalətsiz hakim Gülnarə Tağızadə qarşı tərəfin keçmiş hüquqşünası Əminə Həsənova vasitəsi ilə qeyrimüəyyən maraqlarının yüksək səviyyədə təmin olunmasından razı qalıb 295.1. maddəsinin tələblərini unudaraq vicdanı sızlamadan Rəşad Qoşqarlının cinayət tərkibli yalançı qətnaməsini qüvvədə saxlamaqdan çəkinməmişdir.

Verdiyim kassasiya şikayəti əsasında pandemiyanı bəhanə edib mənim iştirakım olmadan işə baxan Ali Məhkəmənin hakimi İsfəndiyar Şəfiyev də, qarşı tərəfin



qeyri müəyyən maraqlarını keçmiş hüquqşünas Əminə Həsənova vasitəsi ilə təmin edilməsindən vəcdə gələrək fakt və sübutları deyil, dedi-qoduya əsaslanan etimaları əsas götürməklə ədalətsiz qətnamə çıxarması ilə hakimlərin qara siyahısında yer alımış hakim Gülnarə Tağızadənin ədlətsiz qətnamənini qüvvədə saxlayan qanun aliliyini ayaqları altında əzib yox edən CM-in 295.1 maddəsinin tələbləri əsasında məsuliyyətə cəlb edilməsi zərurət təşkil edən qərar qəbul etməklə işə bərpa iddia ərizəmi ədalətsizcəsinə rədd etmişdir. Konstitusiya Məhkəməsinə verdiyim şikayət əsasında min də bir haqlı iş kimi barəmdə qəbul edilmiş ədalətsiz qərar və qətnamələri ləğv etmək məqsədi ilə palataya çıxarılan işimə baxılaraq dekan A.Baxşəliyevin və kafedra müdiri S.Məhərrəmovanın yüksək vəzifəli havadarlarınınm məxvi göstrişləri əsasında Konstitusiyanın 32-ci maddəsinin tələblərinin cinayətkarcasına pozulmasını, bunun pozan şəxslərin CM-in 155, 156, 308, 309-cu maddələri üzrə cinayət məsuliyyəti daşımalrının zəruri olduğunu nəzərə almadan İddia ərizəmə rədd cavabı verən qərardad qəbul edilmişdir.

***"Hürriyyət"***

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.***



# Məhkəmə icraçısı dələduzluqda ittiham olunur

"Məndən 500 manat alan Nicat Bəhmənov dedi ki, get arxayın ol, hər şeyi qaydasına salacağam, amma..."

***Cəlilabad rayonu, Göytəpə şəhəri, Həsənabad Küçəsi, ev 50 ünvanında yaşayan Rzayev Qurban Əliguşat oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və Ədliyyə naziri Fərid Əhmədova müraciət edir:***

"Cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli Fərid Əhmədov!

Yazıb diqqətinizə çatdırıram ki, Cəlilabad rayon məhkəmə icraçısı Bəhmənov Nicat Baloğlan oğlu övladım Rzayev Əbülfətin aliment ödənişi ilə bağlı bizi məhkəməyə çağırtdırdı. Mən özüm qonşuluqda yaşayan Bədəlov Allahbağış Qəzənfər oğlunun maşınına əyləşib, Nicatın yanına getdik. O, bizimlə söhbət zamanı narahatlığımızı, maddi durumumuzun aşağı olmasını öyrənəndən sonra təklif etdi ki, "əvvəldən 500 manat versəniz, mən bunu qaydasına salıb, sizə kömək edə bilərəm". İcraçı 3 uşağın hər birinə 133 manat aliment (ümumilikdə 399 manat) kəsilsə də, ayda 266 manatadək azalda biləcəyini dedi. Mən öz övladlarıma (aliment verəcəyim nəvələrimə) ödəyəcəyim məbləğin belə azaldılması narahatlığı ilə vicdan əzabı çəksəm də, imkansızlığdan Nicatın təklifinə razılaşdım. 4 baş xırda buynuzlu heyvanımı satıb, 500 manat düzəltdim.

05.05.2025-ci il tarixdə Nicat Bəhmənov bizə zəng edib, yanına çağırdı. Mən yenə qonşuluqda yaşayan Bədəlov Allahbağışın maşnına əyləşib, Nicatın yanına - Məhkəmə icraatına getdim. Məndən 500 manat pulu alan Nicat dedi ki, "get arxayın ol, hər şeyi qaydasına salacağam".

Həmin günün sabahısı, yəni 06.05.2025-ci il tarixdə zəng edib bildirdi ki, "özün gəlmə, uşağın Rzayev Əbülfət Qurban oğlunu bura göndər". Mən oğlum Əbülfətlə Nicatın yanına getdik. Orada oğluma 10 sutka həbs cəzası verdilər. İcra məmuru Nicat Bəhmənov elə davranırdı ki, sanki məni tanımır.

İcra məmuru 3 uşağın haqqını yeməklə yanaşı, mənim kimi pensiyaçı, imkansız bir adamı da aldatdı. Amma təəssüf ki, bu məmur haqqında heç bir tədbir görülmür.

Odur ki, sizdən bir qoca ata, olduğca imkansız təbəqənin nümayəndəsi kimi xahiş edirəm, Nicat Bəhmənov haqqında qanuna müvafiq ciddi tədbir görülməsinə və məni aldadaraq mənimsədiyi 500 manat pulu geri qaytarmasına göstəriş verəsiniz.

Göydə Allaha, yerdədə Sizə ümidimi bağlayıb, haqqımın itməyəcəyinə inanıram".

***Jalə FAMİLQIZI***

***P.S. Təəssüf ki, yenə də sözün bitdiyi yerdəyik. Çünki Ədliyyə Nazirliyi heç bir şikayəti qəbul etmir.***

# Kürdəmirdə dövlətin milyonları talan edilir

## Qaramahmudlu kənd sakini tərəfindən ölkə rəhbərliyinə şok müraciət

***Kürdəmir rayonu, Qaramahmudlu kənd sakini Niftalıyev Azər Yusif oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Baş prokuror Kamran Əliyevə, Daxili İşlər naziri Vilayət Eyvazova və İnsan Hüquqları üzrə müvəkkil (Ombudsman) Səbinə Əliyevaya müraciət edir:***

"Cənab Prezident!

Mən, Kürdəmir rayonu, Qaramahmudlu kənd sakini Niftalıyev Azər Yusif oğlu, uzun müddətdir ki, dövlətin aztəminatlı ailələrə vətəndaş dəstək proqramları çərçivəsində ayırdığı vəsaitlərin və verilmiş mal-qaranın ciddi şəkildə mənimsənilməsi, korrupsiya və vəzifə səlahiyyətlərindən sui-istifadə halları ilə üz-üzə qalmışam.




Azərbaycanda "məşğulluq proqramı" adı altında aztəminatlı ailələrə, o cümlədən qazilərə və şəhid ailələrinə alınan heyvanların dəyəri dövlət büdcəsindən bir neçə dəfə artıq göstərilmiş, lakin faktiki olaraq bazardan ucuz, xəstə və yararsız heyvanlar alınıb paylanmışdır.

Şəxsən özüm və Kürdəmir rayonu, Çöl Qubalı kəndindən 6-7 aztəminatlı ailə və Şəki rayonunda məskunlaşmış, Laçın rayonundan olan qaçqın Abdullayev Əbdül bu faktı təsdiqləmiş, həmin heyvanların video və foto görüntüləri ilə sübut etmişik. Həmin ailələrin arasında qazilər də var.

Məsələn, bazar qiyməti 30-50 manat olan keçilər sənədlərdə 100-150 manata, 2 500 manatlıq inəklər 5000-7500 manata rəsmiləşdirilib.

Qeyd edim ki, bu qanunsuz fəaliyyətlər təsadüfi deyil, sistemli şəkildə təşkil olunmuşdur. Belə ki, məşğulluq proqramı çərçivəsində heyvanların alınması və aztəminatlı ailələrə paylanması prosesinə "Aqro Best" QSC adlı hüquqi şəxs cəlb edilmiş, həmin QSC-nin rəhbəri Anar İsmayılov bu korrupsiya sxeminin əsas təşkilatçılarından biri olmuşdur. Onun Kürdəmir rayonunun Qaramahmudlu kəndində yerləşən yerli dəllalları aşağıdakı şəxslərdir:

1. Allahverdiyev Səbuhi Tofiq oğlu;
2. Allahverdiyev Rahib Tofiq oğlu;
3. Allahverdiyev Səməndər Tofiq oğlu.

Bu qardaşlar vasitəsilə bazarlardan dəyəri aşağı, çox zaman xəstə və yararsız heyvanlar toplanaraq sənədlərdə dəfələrlə şişirdilmiş qiymətlərlə rəsmiləşdirilmişdir.

Bu şəxslərin və QSC-nin fəaliyyəti nəticəsində dövlət vəsaitləri mənimsənilmiş, aztəminatlı ailələr isə aldadılaraq, öz qanuni hüquqlarından məhrum edilmişdir.

Şikayətimiz əsasında ilkin mərhələdə müstəntiq Rüfət adlı şəxs tərəfindən işə baxılmış, lakin araşdırma səthi aparılmış, şikayətçilərin ifadələri tam şəkildə qərarda əks olunmamış, maddi sübutlar toplanmamış, nəticədə 30 aprel 2025-ci il tarixli "cinayət işinin başlanmasından imtina" barədə qərar qəbul edilmişdir.

Bundan əlavə, qeyd edirəm ki, Kürdəmir rayon prokurorluğu 30 aprel 2025-ci il tarixli "cinayət işinin başlanmasından imtina edilməsi" barədə qərarı qanunla müəyyən edilmiş müddətdə mənə təqdim etməmişdir. Qərar 3-4 ay ərzində məndən gizlədilmiş, dəfələrlə etdiyim israrlı müraciətlərə baxmayaraq təqdim olunmamışdır. Yalnız şikayət edəcəyimi bildirdikdən və prokurorluğu tərk etdikdən sonra, məni geri çağıraraq həmin qərarı gecikdirilmiş qaydada təqdim etmişlər. Qərar mənə yalnız 28.07.2025-ci il tarixdə, saat 11:27-də təqdim edilmişdir. Halbuki, qanunvericiliyin tələbinə görə, bu qərar ən geci 3 gün müddətində təqdim edilməli idi.

Üstəlik, aşağıdakı səbəblərdən bu qərar əsassızdır:

- Araşdırma yalnız kağız üzərində aparılıb, faktlar yerində yoxlanılmayıb;
- Şikayətçilərin verdiyi izahatların əksəriyyəti qərarda öz əksini tapmayıb;
- Maddi sübut kimi təqdim etdiyimiz foto və videolar nəzərə alınmayıb;
- İşin mahiyyəti - dövlət vəsaitinin mənimsənilməsi və korrupsiya faktı - araşdırılmayıb.

Hüquqi əsaslandırma:

Göstərilən hərəkət və hərəkətsizliklərlə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin aşağıdakı maddələrinin tərkibi yaranır:

178-ci maddə (Dələduzluq),

179-cu maddə (Mənimsəmə və israf etmə),

308-ci maddə (Vəzifə səlahiyyətlərindən sui-istifadə),

309-cu maddə (Vəzifə səlahiyyətlərini aşma),

313-cü maddə (Vəzifə saxtakarlığı),

314-cü maddə (Səhlənkarlıq).

Bundan başqa, "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 4 və 5-ci maddələrinin, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunun tələblərinin kobud şəkildə pozulduğu aşkardır.

Azərbaycan Respublikası Konstitusiyasının 12, 24, 25, 29 və 60-cı maddələri və "İnzibati icraat haqqında" Qanunun 10 və 24-cü maddələri də pozulmuşdur.

Cənab Prezident!

Sizdən xahiş edirik ki, 30 aprel 2025-ci il tarixli "cinayət işinin başlanmasından imtina edilməsi" barədə qərar ləğv edilsin. İş rayon səviyyəsindən çıxarılaraq Azərbaycan Respublikası Baş Prokurorluğu yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin istintaqına verilsin. Həmçinin, dövlətin ayırdığı vəsaitlərin və paylanmış heyvanların bazar qiyməti ilə müqayisəli araşdırılması üçün müstəqil ekspertiza təyin edilsin. Məsul şəxslər barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılsın və onlar vəzifələrindən kənarlaşdırılsın və zərərçəkmiş ailələrin maddi ziyanı tam şəkildə ödənilsin".

***Jalə FAMİLQIZI***

***Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.***

# Sülh sammiti Azərbaycana nə verdi?

## Vaşinqton anlaşması təkcə iki ölkə arasında imzalanan sənəd deyil, bölgənin yenidən "formatlanmasıdır"

***ABŞ Prezidenti Donald Trampın dəvəti, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Vaşinqtonda keçirilən sülh sammitinin böyük rezonans doğuracağı əvvəlcədən bəlli idi.***

Hələ danışıqlar ərəfəsində medianın əldə etdiyi məlumatlardan görünürdü ki, danışıqların zəngin gündəliyi və imzalanacaq sənədlər Azərbaycanla Ermənistan arasında sülh gündəliyini finiş xəttinə çıxaracaq və Cənubi Qafqazda mahiyyətcə yeni geosiyasi dövrün əsasını qoyacaq.

Artıq neçə gündür ki, danışıqların nəticələri mediada və analitik çevrələrdə təhlil edilir və demək olar ki, bütün rəylərdə əldə olunan razılaşmaların bölgəyə sülh və rifah gətirəcəyinə dair əminlik ifadə olunur.

Vaşinqton sammitinin uğurlu yekunları ilə bağlı Azərbaycan və Ermənistan liderlərinə çoxsaylı təbrik, Donald Trampa isə təşəbbüsə görə təşəkkür mesajları göndərilir. Dövlət və hökumət başçıları, beynəlxalq təşkilatlar baş verənləri bir ağızdan alqışlayır, kimisi vaxtilə sülh prosesinə özünün verdiyi töhfəni xatırladır, kimisi gələcək üçün dəstəyini təklif edir.

ATƏT, Makron və digər qatara gecikənlər

Razılaşmaları alqışlayanlar arasında vaxtilə sülhə mane olmaq istəyənləri, Azərbaycanı qəbuledilməz güzəştlərə məcbur etməyə çalışanları da görmək mümkündür. Onlar qatara gecikdiklərini başa düşsələr də, artıq ona çatdırmaqları çox çətin, bəziləri üçün isə ümumiyyətlə mümkün olmayacaq.

Məsələn, ATƏT deyir ki, Azərbaycan və Ermənistan liderlərinin 8 avqust Bəyannaməsinin reallaşdırılmasında öz üzərinə düşəni etməyə hazırdır. Bəyannaməyə görə isə bu təşkilatın bundan sonra edə biləcəyi ən yaxşı iş ancaq ATƏT-in bədnam Minsk qrupunun ləğv edilməsi ola bilər. Münaqişənin həlli üçün vasitəçilik mandatı almış bu qurum, 30 ilə yaxın müddətdə yalnız Azərbaycanı işğalın nəticələri ilə barışdırmağa çalışıb.

Fransa senatının üzvü Natali Qule isə rəsmi Parisin erməni lobbisinə xidmət etməsi səbəbindən oyundan kənar vəziyyətdə qaldığı üçün təəssüflənib. "İndi Fransa bu prosesdə iştirak etmir. Ümid edirəm ki, Fransa tezliklə Azərbaycanla münasibətlərini yaxşılaşdıracaq", - deyə senator bildirib.

Azərbaycan-Ermənistan razılaşmalarını alqışlayanlar arasında BMT-nin Baş katibi Antoniu Quterriş də var. Həmin BMT-nin ki, böyük güclərin lazım bildiyi ölkələrə hərbi müdaxiləyə bir gecədə fərman verə bilir, amma 30 il ərzində öz Təhlükəsizlik Şurasının Qarabağdan işğalçı erməni qüvvələrinin çıxarılması haqqında qətnamələrinin icrasını təmin edə bilmədi.

### 907 saylı maneə

Yeri gəlmişkən, BMT Təhlükəsizlik Şurasında əsas söz sahibi olan ABŞ-nin özü də Donald Tramp hakimiyyətə gələnədək Ermənistan-Azərbaycan münaqişəsinə münasibətdə ədalətli yanaşması ilə seçilmirdi. Elə Vaşinqton danışıqlarının nəticəsi olaraq prezident Trampın icrasını dayandırdığı "Azadlığa dəstək aktı"na 907 saylı düzəliş bunun ən bariz nümunəsidir. 1992-ci ildə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı BMT səviyyəsində təsdiqini tapdığı bir vaxtda, ABŞ işğalçı tərəfi deyil, işğaldan zərər çəkən tərəfi sanksiyalara məruz qoymuşdu. Yalnız Amerika hərbi yüklərinin Azərbaycan üzərindən Əfqanıstana daşınması zərurəti yarandıqdan sonra Ağ Ev sahibləri bu ədalətsiz düzəlişin icrasını müvəqqəti dayandırmağa başladılar. ABŞ Əfqanıstandan çıxdıqdan sonra isə qatı ermənipərəst Co Bayden administrasiyası yenidən 907-ci düzəlişi işə saldı. Bu mənada Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevlə konstruktiv münasibətləri sayəsində 907-ci düzəlişin icrasının dayandırılması Vaşinqton sammitinin ən vacib nəticələrindən hesab olunur.

### Qonşun qonşu olsa

Analitikləri ən çox maraqlandıran məsələlərdən biri də Vaşinqtonda baş verənlərə Moskvanın münasibəti idi ki, onun da reaksiyası özünü çox gözlətmədi. Bu ölkənin xarici siyasət idarəsinin sözçüsü Mariya Zaxarova da Vaşinqton görüşünü müsbət qiymətləndirdiklərini deyib. Lakin o, qeyd edib ki, əldə olunan razılaşmaların əsası Rusiyanın iştirakı ilə 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatda qoyulub. Zaxarova hesab edir ki, Cənubi Qafqazdakı problemləri bölgə ölkələri öz qonşuları - Rusiya, İran və Türkiyənin iştirakı ilə həll etsə daha optimal olar. Türkiyənin bölgədə sülhə və əməkdaşlığa verdiyi töhfələr, oynadığı müsbət rol hər kəsə məlumdur. Bəs Rusiya və İran?

Azərbaycanın Qarabağ bölgəsindəki silahlı separatçıları zərərsizləşdirməsindən sonra Rusiya "sülhməramlı" kontingentinin də burada mövcudluğuna zərurət qalmadı. Lakin onlara dəstəyini Ermənistan ərazisində davam etdirən Moskva bilməli idi ki, revanşist qüvvələri himayə etməklə bölgənin lider dövləti olan Azərbaycanın olanqalan etimadını da itirəcək. O ki qaldı Zaxarovanın adını çəkdiyi digər qonşu - İrana, bu ölkənin Ali dini rəhbərinin müşaviri Əli Əkbər Vilayəti indidən deyir ki, onlar Vaşinqton anlaşmalarının həyata keçirilməsinə mane olacaqlar - Rusiya onlara kömək etsə də, etməsə də.

Vaxtilə Zəngəzur dəhlizinin Azərbaycana verilməsinə qarşı çıxan və Ermənistan sərhədlərinin toxunulmazlığını özünün "qırmızı xətti" adlandıran Tehran, məntiqlə, gərək indi Ermənistanın özünü cəzalandırsın. Çünki İranın "qırmızı xəttini" İrəvan qonşu Azərbaycanın, Rusiyanın və ya Türkiyənin nəzarətinə yox, birbaşa ABŞ-nin icarəsinə verməyə hazırlaşır. Zəngəzur dəhlizindən söz düşmüşkən, Mariya Zaxarova Rusiyanın da bu məsələyə isti yanaşmadığına eyham vurub və Ermənistanın İranla sərhədlərinin rus sərhədçiləri tərəfindən qorunduğunu nəzərə almağa çağırıb.

Yeri gəlmişkən, elə Vaşinqton sammitinin keçirildiyi günlərdə Rusiya ordusu SOCAR-ın Odessa vilayətində yerləşən neft bazasına raket zərbəsi endirdi. Bundan əvvəl isə Ukrayna ərazisində Azərbaycan qazını nəql edən boru kəməri Rusiyanın hücumuna məruz qalmışdı. Avqustun 10-da Azərbaycan və Ukrayna Prezidentləri İlham Əliyev və Volodimir Zelenski telefon danışığı apararaq, Rusiyanın bu hərəkətlərindən hiddətləndiklərini bildiriblər. Caliber.az isə etibarlı mənbələrə istinadən xəbər verir ki, Rusiya Azərbaycanın maraqlarına qarşı yönəlmiş aqressiv siyasətini davam etdirsə, rəsmi Bakı öz arsenalında olan silahların Ukraynaya təchizatına qoyduğu embarqonu aradan qaldıra bilər.

### "Nəyi, necə, nə vaxt etmək lazım olduğunu" bilən lider

Hər bir halda Prezident İlham Əliyevin özünün də dediyi kimi, "nəyi, necə, nə vaxt etmək lazım olduğunu" o, hər kəsdən yaxşı bilir. Uzun illər göstərilən ədalətsiz münasibətə, edilən beynəlxalq təzyiqlərə rəğmən, torpaqları işğaldan tam azad edən, ölkənin sərhədlərini və suverenliyini bərpa edən və Qələbənin nəticələrini bütün dünyaya qəbul etdirən Azərbaycan lideri, irəli sürdüyü sülh gündəliyini də Vaşinqton sammitində tam reallaşdırdı. Bununla da erməni lobbisinin xidmətçiləri olan Bayden-Blinken cütlüyünün, Ermənistanı yeni müharibəyə sövq etməyə çalışan Emmanuel Makronun, barışıq əvəzinə bölgəyə hərbi kəşfiyyat yeridən Avropa İttifaqının, siyasi cəza maşınına çevrilən Avropa Parlamenti və Avropa Şurası kimi qurumların Azərbaycanı güzəştlərə məcbur etmək planları iflasa uğramış oldu.

Azərbaycan Prezidentinin yürütdüyü siyasət nəticəsində hər kəs gördü ki, bölgə xalqları çoxdan arzuladıqları sülhə özləri, birbaşa dialoq vasitəsilə nail ola bilərlər. Bunun üçün münaqişənin kökündə duran, onu qızışdıran dövlətlərin "vasitəçiliyi"nə ehtiyac yoxdur. Sülhə mane olmasınlar, yetər.



***Namiq MAİLOV***



# Vətən şəhidi unudulmur

***44 günlük haqq savaşımızda əsir düşən Qarabağımızı azad etmək naminə düşmənlə ölüm-dirim savaşında hünər göstərib adını tariximizin şərəfli səhifəsinə yazan zəfər şəhidlərimizdən bir də Zaur Nizami oğlu İsmayılzadədir.***



Lənkəran rayonunun İstisu qəsəbəsində boya-başa çatan Azərbaycan xalqının qəhrəman oğlu canından artıq sevdiyi Vətənin çağırışına gedəndə ömrünün 25-ci ilini yaşayırdı. İndi əlçatmaz, ünyetməz bir dünyanın sakini olan Zaurun 30 yaşı tamam oldu.

Canını Vətən, xalq yolunda fəda edən Zaurun xatirəsi hər bir lənkəranlı üçün çox əzizdir. O, ürəklərdə yaşamaqla həmişə böyük iftixarla xatırlanır. Doğum günündə bir daha bu ilahi sevginin şahidi olduq. Yatdığı müqəddəs yerə tər güllərdən çələng hörən mərasim iştirakçıları böyük qürur hissi ilə Zaurun doğma yurda sonsuz sevgisindən, müharibədə göstərdiyi hünərdən söz açdılar. O da bildirildi ki, Vətən, torpaq naminə şəhid olanlar heç vaxt ölmürlər. Bizim Zaurda Qarabağımızın xilaskar ərənləri kimi tarixin yaddaşına düşdü, qazanılan qələbəmizin qəhrəmanlıq simvoluna döndü. Onun şərəfli həyat yolu gələcək nəsillərə də örnəkdir

Onu da deyək ki, Zaur İsmayılzadə ilk gücünü erməni dığalarına Aprel döyüşləri zamanı göstərib. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin sıralarında hərbi qulluqçu olaraq savaşıb, mərdliyi, qəhrəmanlığı dillərdə dastan olub. O, döyüşün sonlarında ağır yaralanıb və səhhətində problemlər yarandığı üçün 2017-ci ildə ordudan tərxis olunub. Vətən müharibəsi zamanı Zaur İsmayılzadə sentyabrın 29-da könüllü ordu sıralarına qatılıb, qeyrətli oğullarla bərabər səngərdə öz yerini alıb. Ən çox Fizulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Neçə-neçə müharibənin qalibi olan qəhrəman oktyabrın 7-də elə müharibə meydanında yağı gülləsinə tuş gəlib, ürəyi əbədi olaraq dayanıb. Lənkəranda sevdalandığı doğma torpaq onu öz ağuşuna alıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Şuşanın azadlığına görə medalları ilə təltif edilib.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Vətən Füzuli üçün hər şeydən müqəddəs idi...

***44 günlük haqq savaşımız Azərbaycan adlı Vətənimizin şanlı tarixinin qürur səhifəsinə dönərək, əbədi yaddaşlara yazıldı. Xalqımız bu şərəfə minlərlə qeyrətli oğlanların qanı bahasına nail oldu.***



8 mart 1995-ci ildə Cəlilabad şəhərində dünyaya göz açan Füzuli Nizami oğlu Həbibi də Vətənin azadlığı, insanların xoş gələcəyi naminə canından, qanından keçərək şəhidlik zirvəsinə ucalıb. İndi hər bir azərbaycanlı bu Vətən sevdalının xatirəsini əziz tutmağı özünə müqəddəs borc sayır. Cəlilabadlılar isə öz qəhrəman oğlunun qısa, olduqca şərəfli ömür yolunu torpağa, el-obaya sonsuz məhəbbət mücəssəməsi bilirlər. Hər dəfə Füzuli yada düşəndə ürəklər Vətən sevgisi ilə çırpınır. Və bu halal sevginin müqəddəsliyinə tapınmaqla adam həyatda neçə yaşamağın mənasını daha dərindən dərk edir. Özünə də nəsibi əzəmətli şəhidlik zirvəsindən boylanan sədaqət olan Füzuli kimi sevdalı bir ömür arzulayır.

Ölümü ilə ölümsüzlük qazanan, işıqlı dünya durduqca unudulmayan qəhrəmanımız müharibə zamanı göstərdiyi şücaətə üçün həm də III dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda", Qubadlının, Cəbrayılın azadlığına görə medallara layiq görülüb.

Füzuli Həbibi özünü tanıyan gündən həyatın mənasını Vətənə, torpağa, insanlara sevgidə görüb. Eləcə gözəl arzularla doğma yurda bağlanmaq sanki onu yaşından tez müdrik edib. Xalqın ağrıacılarını, sevincini, yurd təəssübkeşliyini ürəyindən keçirməyi bacaran Füzuli bir qayda olaraq erməni dığaları tərəfindən Qarabağımızın işğalına qarşı barışmaz mövqeyini ortaya qoyub və ən böyük arzusu da Vətən torpaqların hər qarışını azad görmək olub.

2013-cü ilin aprel ayında Füzuli həqiqi hərbi xidmətə çağırılıb. Cəbhə bölgəsində Vətənini göz-bəbəyi kimi qoruyub, uğrunda canını belə fəda etməyə hazır durub. Təlimlər zamanı göstərdiyi fədakarlığı isə onu zabitlərə, əsgər yoldaşlarına çox sevdirən əsas keyfiyyəti olub. Doğma Azərbaycan üçün yararlı olduğu hər əməlində bilinib. Köksündə əsl qəhrəman ürəyi döyünən Füzuli 2014-cu ildə əsgərlik borcunu şərəflə yerinə yetirib doğma evinə qayıdıb.

Füzuli düşməndən alacağı öcü unutmamaq şərti ilə bir müddət halal zəhmətdən yapışıb. Burada da el-obasına fayda vermək onun əsas amalına dönüb. Nə edibsə, Vətənə məhəbbət, yağıya nifrət hissi qəlbini tərk etməyib. İkinci Qarabağ müharibəsi başlanan günü qeyrətli cəngavər Vətən oğulları silaha sarılıb döyüş bölgəsinə üz tutublar. 30 il əsir düşən torpaqları azğın düşməndən geri alınması üçün Füzuli könüllü odun-alovun içinə, səngərə yollanıb. Döyüşə girən andan o, erməni dığalarına qarşı mərdliklə vuruşub. Hər gün yeni-yeni igidliklər göstərib. Qalib olmaq istəyi Füzulini neçə-neçə alovun içindən zəfərlə çıxardıb. Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının və Suqovuşanın alınmasında qanlı döyüşlərdə böyük şücaət göstərib. 31 oktyabr 2020-ci ildə Qubadlı ətrafında gedən döyüşlərdə son damla qanınadək vuruşub, qəhrəmancasına müqəddəs şəhidlik zirvəsinə ucalıb .

Vətəni qanları bahasına alınmaz qalaya çevirən Füzuli kimi oğlanlarla bütöv bir xalq fəxr edir.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Hünər göstərib adını tarixə yazan Kənan

***Cəlilabadda boya-başa çatan Kənan İlqar oğlu Nadirli İkinci Qarabağ müharibəsində Vətən torpaqlarının azadlığı uğrunda misilsiz şücaət göstərərək 20 yaşında şəhidlik zirvəsinə ucalıb.***



Fəqət, Kənanın ömür yolu qısa oldu, amma onda Vətənə, torpağa ilahi bir sevgi yaşayır. Həmçinin əsl qəhrəman məktəbi olmaqla həm də gələcək nəsillərə örnək olacaq. Beləcə Cəlilabadın igid oğlu ürəklərdə özünə yer etməklə zaman-zaman unudulmaz.

Doğma Azərbaycanın qarşısında xüsusi xidmətləri olan, öz qəhrəmanlığı ilə dastan yazan Kənan Nairli həqiqi hərbi xidmətdə igidliyi, mərdliyi ilə ad qoyub. Qarabağın azadlığını düşünməklə keçirilən təlimlərə ürəklə qatılıb, həmişə uğur qazanıb. Bütün əsgərlərə onun kimi Vətəni sevməyi, nümunəvi xidmət etməyi bildiriblər.

Əsgərlikdən sonra düşmən əsarətində olan torpaqların azadlığı uğrunda döyüş əməliyyatlarına qoşulması üçün hər an, hər dəqiqə Ali Baş Komandanın əmrini səbirsizliklə gözləyib. Vətən müharibəsi başlanan günü könüllü olaraq Kənan yağı ilə döyüşə girib. Neçə-neçə ölüm-dirim savaşda düşmənə qan qusdurub. Qəhrəmanımız Füzuli, Qubadlı, Cəbrayıl istiqamətində gedən döyüşlərdə mərdliklə vuruşub və çoxlu sayda erməni yaraqlısını məhv edib. 2020-ci il noyabr 6-da Qubadlı istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində ömrünə son qoyulub. Kənan Nadirli Qarabağımızın mətin və xilaskar ərənləri kimi adını şanlı tariximizə yazdırıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında "Vətən uğrunda", Cəbrayılın, Qubadlının azadlığına görə medalları ilə təltif edilib.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Hürriyyət
Təhlil
SİZİN ÜÇÜN QƏZET
N 28 (3367) 12 Avqust / 2025-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru





# Zəngəzurlu Trampın açarı

## Ağ Evin simvolik açarı bizim üçün xoşbəxtlik və təhlükəsizlik təminatı olmasa da, bu açardan ağıllı istifadə etmə şansına olduqca ciddi yanaşmalıyıq

***Nikol Paşinyan son iki yüz ilin ən ağıllı və cəsur ermənisidir! Xalqını xəstəlikdən xilas etməyə qərar vermiş. Və ağılla, inadla, əzmlə bu qərarı icra edir. Söhbət uzun illər özünə Türk adında düşmən obrazı yaratmış və ona qarşı ölüm-dirim savaşına girmiş, ona yaşatdığı acılar qədər özü də acılar, faciələr yaşamış erməni xalqından gedir. O artıq Böyük Ermənistan, saxta genisod, Artsax, eləcə də Kilsə faşizmi kimi xəstəliklərin xərçəng hüceyrələrinin inkişafını dayandıra bildi.***

Erməni xalqına ekosiyasi sağlamlıq hüdudlarını göstərdi. Aqibəti önəmli deyil, Şeksprin məşhur personajının söylədiyi kimi, Mavr öz işini gördü. Ancaq bir məqamı unutmayaq ki, Sovet sisteminin beynəlmiləlçilik məhdudiyyəti içində qabarıq milliyətçilik nümayiş etdirə bilməyən bu kiçik erməni xalqı həm də bizim yararlanmaqda çətinlik çəkdiyimiz resurslardan daha çevik yararlanaraq şahmat üzrə dünya çempionları, əksəriyyəti Bakı məktəbinin yetirməsi olan SSRİ çempionuluğunu qazanan futbol komandası, ümumittifaq elm, sənət, hərbiçi elitası yarada bilmişdi. Prezident İlham Əliyevin dəmir yumruğu və diplomatiyası sayəsində öz hüdudlarına qaytarılmış bu xalqın bundan sonrakı dövrdə hansı yolu gedəcəyini ciddi şəkildə izləmək zorundayıq. Əslində Sovet dövründə ən cəsarətli addımlardan biri Rusiyanın ali məktəblərinə çox sayda azərbaycanlı gənclərin Heydər Əliyevin təşəbbüsü ilə göndərilməsi idi. Lakin sonradan bu məktəblərdən məzun olan şəxslərin ümumittifaq səviyyədə aparıcı mövqelər qazana bilməməsinin sıxıntılarını sonradan daha çox hiss etdik.

Mahiyyətcə hərbçinin qələbəsini, siyasətçinin qələbəsini indi də mədəniyyətin qələbəsi tamamlamalıdır. Ötən gün ABŞ-da prezident Tramın ağsaqqallığı ilə imzalanan bu üçtərəfli bəyanat həm də 8 noyabr 2020-ci ildə prezident Putinin ağsaqqallığı ilə imzalanan üçtərəfli bəyanatın mahiyyətinin nə qədər önəmli olduğunu anladır. Əgər 5 il öncə Putin mərhələsi İlham Əliyevin uzaqgörən zəkası ilə keçilməsəydi, Tramp mərhələsinə adlamaq o qədər də real olmayacaqdı. Bu iki bəyanat Azərbaycan dövlətinin işğalçı qonşu üzərində hərbi və diplomatik qələbəsini təsdiq edən sənədlərdir.

Zəngəzurlu Tramp yolunun açıldığı gün də Azərbaycanın bütövləşdiyi, Bütöv Azərbaycanın gerçəkləşdiyi bir gün olacaqdır. Naxçıvanla birləşəcək Azərbaycanın adı Bütöv Azərbaycan deyilsə, bəs nədir? Həm də bununla iki düşmən dövlət arasında savaşa son qoyulur, qonşu xalqlar arasında rəqabətə start verilir. İndi xalqımızı bu rəqabətə hazırlamalıyıq. Universiteti ilə, idmanı ilə, mədəniyyəti ilə, ədəbiyyatı ilə, çalışqanlığı, təşəbbüskarlığı və ən başlıcası da çağdaşlıq keyfiyyəti ilə üstünlüyümüzü təmin etməliyik.

Vaxtilə bu işi xalqımız üçün Qarabağ xanı İbrahim xan görmüşdü. İlk dəfə o qərar vermişdi Səfəvi-Qacar zəlalətindən, geriçiliyindən, məzhəbçilik xəstəliyindən qurtuluşa. Anlayırdı ki, qarşısındakı şimaldan gələn qüvvə işğalçıdır, ancaq əsrlər boyu mənəviyyatın işğalının fiziki işğaldan daha böyük faciə olduğunu görürdü. Həm də əsrlər boyu xəstə dinçilik-məzhəbçilik şüuru ilə öz milli kimliyini unutmuş bir xalqın dünyəvi hüquq sisteminə daxil olması ilə Qərb mədəniyyətinə doğru yolu açıla bilərdi. Bu yolda işğalçı Rusiya qüvvələri bir gecə ailəsi ilə birlikdə İbrahim xanı öldürdülər, ancaq zaman onun qurtuluş üçün seçdiyi yolun haqlılığını tanıdı. Rus vəhşiliyini ört-bas edən Pyotrın Avropadan mənimsədiyi mədəniyyətdən bizə də pay düşdü. Hərəmxanasında barındırdığı 500-dən çox kölə müsəlman arvadla əylənməyə başı qarışmış Fətəli Şahın iyrənc saqqalından qopan kiçik bir xalq Rusiya müstəmləkə sistemi içində ilk dəfə olaraq dünyəvi məktəblə və Avropa hüquq sistemi ilə tanış oldu, şəriət hüquqsuzluğunun caynağından qurtuldu, modern yazılı ədəbi-fəlsəfi mətn, və modern əlifba barədə düşüncələr cücərməyə başladı. Və bu məktəblərdə yetişən məhdud sayda savadlı və azadlıqsevər insanların hesabına heç yüz il keçməmiş ilk tarixi fürsətdə müstəqil cümhuriyyət qura bildik.


**Fazil MUSTAFA,**
**Milli Məclisin deputatı**

Vəhşi bolşevik rejimi bütün xalqlara tutduğu divanı bizə də tutmuşdu. Ancaq bolşevizm dininin dünyəvi mahiyyəti bizim 70 il ərzində yenə də daha vəhşi İran dünyasından fərqimizi qoruya bildi. Ən azı ortabab da olsa kütləvi təhsil almamız bizim dünya həyatına immunitetimizi qorumuş oldu. Yəni kədər mazoxizmini yaşamaq istəyən çoxluq həyat eşqini canlandıran azlığı məhv etmək iqtidarında olmadı. Düşüncəmə görə, biz həm Çar Rusiyası müstəmləkə sisteminin, həm də bolşevik dönəminin Şərq qaranlığından qurtuluş imkanlarından lazımi səviyyədə yararlana bilmədik. İndi də bunun sancılarını yaşamaqdayıq. Yaxşı ki, müstəqil dövlətimizi bərpa edərək qismən də olsa yalnız hərbi dəmir qübbəmizi deyil, həm də mədəniyyət qübbəmizi yarada bildik.

Bizim ABŞ-ın strateji dostu olmamız həm də bizim mədəniyyət seçimimizdir. Bu bizim 1828-ci ildə işğal nəticəsində qopduğumuz, qurtulduğumuz qaranlıq mühitdən nisbətən mədəni mühitə adlamamıza bənzər bir yerdəyişmə idi.

Həmin yerdəyişmə bizə nə verdisə, indi də yeni mədəniyyət mühitinə adlamamız daha böyük faydaları özü ilə gətirməlidir. Son illərdə Rusiyada vaxtilə az-çox mövcud olan mədəni mühit tamamilə sıfırlandı, militarist, işğalçı zehniyyət tam və qəti qələbə çaldı. Bizim yerdəyişməmiz tarixi zərurətdir və bu dəfə yerdəyişməni dövlətsiz xalq olaraq işğala məruz qalmaqla deyil, müstəqil dövlət olaraq könüllü qərarla gerçəkləşdirdik. Ancaq yenə də kiminlə dost oluruqsa olaq, qonşularımız Rusiya və İranla düşmən olmama siyasətini israrla önəmsəməliyik. Çünki Azərbaycan xalqı yalnız Azərbaycan Respublikasında yaşayan vətəndaşlardan ibarət deyil. Oralardan gələn bəzi səfehlərin hədələyici mesajlarına baxmayın. Artıq onlar bizi deyil, Trampı və onun simasında ABŞ-ı hədələyirlər. Biz yolu keçən yolçuyuq, yolun sahibi özü bu hədələrə layiqli cavabı verəcəkdir. Ağıllı, rasional mesajlar da alırıq. Özəllilklə də İranda ağıllı adamlar artıq anlayırlar ki, bu yol onların bəlkə də Qərbə inteqrasiyası üçün sonuncu şanslarından biridir. Unutmayaq ki, indi xalq olaraq ermənilərlə daha sərt və ciddi rəqabət mühitinə baş vururuq. Zəngəzurlu Tramp erası bitənədək Azərbaycan dövlətinin qazandığını indi bu rəqabətdə bütövlükdə Azərbaycan xalqı qazanmalıdır. Azərbaycan prezidentinin siyasətdə qazandığı uğuru Azərbaycan alimi elmdə göstərməlidir. Xalqı təmsil edəcək bütün mexanizmlər həm peşəkar, həm də təşəbbüskar olmalıdır. Burada ilk öncə siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının rolundan söhbət gedir. Bürokratiya siyasi partiyaların və QHT-lərin yeni şəraitdə aktivliyinin artmasına sağlam münasibət sərgiləməlidir. Çünki bu mərhələdə Ermənistanla rəsmi münasibətlərdən daha artıq parlamentlərarası, partiyalararası və QHT-lərarası münasibətlərin keyfiyyət göstəriciləri həlledici olacaqdır. Bu işi həm də Türkiyənin uyğun qurumları ilə birlikdə üçlü formatda gerçəkləşdirməyi də gözardı etməməliyik.

Anlaşılması zəruri olan əsas tezis fikrimcə budur: İlham Əliyev Azərbaycanı mini meydançada oynamaqdan divlərin yer aldığı böyük meydançaya keçirməyi inanılmaz ustalıqla bacardı. Beş il öncəki yuxularınızı təftiş etsəniz buna özünüz də inana bilməyəcəksiniz. Ancaq bu meydançada həmişə qalmaq üçün hamılıqla fədakarlıq etməliyik. Ağ Evin simvolik açarı bizim üçün xoşbəxtlik və təhlükəsizlik təminatı olmasa da, bu açardan ağıllı istifadə etmə şansına olduqca ciddi yanaşmalıyıq. Dənizçilər üçün yadda saxlamağa məhkum olduqları bir ifadə var: "Dənizdə təhlükəsiz sahil olmur!" Bu əslində bizim də Azərbaycan xalqı, Azərbaycan dövləti olaraq qətiyyən unutmayacağımız bir ehkam mahiyyətindədir. Qafqazda, postsovet, postpəhləvi məkanında təhlükəsiz döngə, yer yoxdur və qonşuları da biz Allahdan xahiş edib başımızın üstünə və ayaqlarımızın altına yerləşdirməmişik.

Xalqlararası rəqabətin qalibi kim olacaqsa, sonda qələbə onun adına yazılacaqdır. Harada boşluqlarımız varsa, hökmən əl gəzdirməliyik, insanlarımıza daha çox dövlətinə güvənən və bu prosesdə dövlətinə içdən dəstək verəcək inam və iradə aşılamalıyıq.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Cənubi Qafqazda yeni düzən formalaşır




***Zəngəzur məsələsində qarantor rolunda çıxış edən Birləşmiş Ştatlar artıq Cənubi Qafqazdan qovulmaq üzrə olan Rusiyanı Azərbaycan və Türkiyə ilə əvəzləməkdədir...***

**II YAZI**

Avqust 5-də "Hürriyyət" qəzetində dərc olunan "Ağ Evdə Qafqazın taleyi həll olunacaq" sərlövhəli yazıda bir neçə gün sonra - ayın 8-də Vaşinqtonda baş tutacaq sülh samiti haqda fikirlərimizi qeyd etmişdik. Belə ki, həmin ərəfədə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın ABŞ-a səfəri haqda hər hansı rəsmi məlumat olmasa da, yazımızda bu görüşün baş tutacağını əminlik ifadə etmiş və sülh sazişinin real olduğunu bildirmişdik.

Diqqətli oxuculara da məlum olduğu kimi, ABŞ prezidenti Donald Trampın dəvəti ilə qeyd olunan tarixdə Azərbaycan və Ermənistan liderlərinin Ağ Evdə görüşü baş tutdu. Səfər çərçivəsində çoxları üçün gözlənilməz olan sülh sazişi imzalandı. Bu sənədin detalları haqda əlavə məlumat verib, oxucuların vaxtını almaq istəmirik. Çünki son günlərdə bu haqda nəinki Azərbaycan və Ermənistan, bütün dünya mediası öz səhvələrində geniş məqalələr dərc etməkdədir. Heç də təsadüf deyil ki, istər Azərbaycanın, istər də Prezident İlham Əliyevin adı hazırda bütün dünya ölkələrində medianın və sosial şəbəkə istifadəçilərinin gündəmində ilk yeri tutur.

Bütün bunlar öz yerində. Ötən yazımızda da qeyd etdiyimiz kimi, əslində, Vaşinqtonda imzalanan sülh sazişi bir neçə aspekdən şərh olunmalıdır. İlk növbədə, bu anlaşmanın hər iki ölkə üçün əhəmiyyəti diqqətə alınmalıdır. Digər tərəfdən, onu da nəzərə almaq lazımdır ki, bu sənəd təkcə iki ölkə arasındakı münasibətləri nizama salmır, ümumilikdə Cənubi Qafqazda yeni siyasi düzən formalaşdırır. Üstəlik, artıq bu düzən Rusiyanın və onun kimi şər yuvasına çevrilən İranın nəzarətindən kənarda formalaşmaq üzrədir. Elə bu səbəbdən də hər iki ölkə tərəfindən Vaşinqtonda baş tutan sülh sammitinə xoş münasibət sərgilənməyəcəyi əvvəlcədən bəlli idi.

Son günlər istər Moskvadan, istər də Tehrandan eşidilən çatlaq səslər dediklərimizin baris nümunəsi hesab oluna bilər. Bu proseslərin fonunda bəzilərini düşündürən odur ki, Rusiya və İranın Azərbaycanla Ermənistan arasında əldə olunan sülh anlaşması, o cümlədən Zəngəzur dəhlizinin açılmasına müqaviməti bəyanətlər səviyyəsini aşa bilərmi?

Nəzərə alsaq ki, tarixən, eləcə də son illər ərzində region xalqları Rusiya və İranda hakimiyyətdə olan irtıca rejimlərinin yırtıcı əməlləri ilə çox qarşılaşıblar, bu kimi narahatçılıqlar səbəbsiz deyil. Amma unutmaq olmaz ki, artıq nə Azərbaycan Kremlinin göstərişləri ilə işləmir, nə də bu prosesdə Putin Rusiyasının "at oynatmaq" imkanları mövcuddur. Ən azı, ABŞ-ın bu məsələdə nəzarətedici funksiyanı öz üzərinə götürməsi belə deməyə əsas verir ki, heç bir qüvvə Vaşinqtonda əldə olunan sülh anlaşmasını poza biləcək qüdrətə sahib deyil.

Burada bir məqamı da diqqətdən qaçırmaq olmaz. Bu sazişin əldə olunmasında pərdə arxasında öz rolunu mükəmməl şəkildə oynayan daha bir dövlət var ki, təkcə sülh carçısı rolunda çıxış etmir, həm də Rusiyanı Qafqazdan sıxışdırıb çıxarmaq iqtidarındadır. Əlbəttə, söhbət qardaş Türkiyə dövlətindən gedir. Rəsmi Ankara Vaşinqton sammitində hər hansı formada yer almasa da, bu prosesdə aparıcı rol sahibi olduğu kimsəyə sirr deyil. Zənnimizcə, 30 iyul 2025-ci il tarixində baş tutan Türkiyə Milli Təhlükəsizlik Şurasının iclasında Zəngəzur dəhlizinin açılması ilə bağlı müzakirələrə üstünlük verilməsi heç də təsadüf deyildi. Görünən odur ki, Prezident Ərdoğanın sədrliyi ilə keçirilən sözügedən qapalı toplantıda cəmi 1 həftə sonra (8 avqustda) baş tutacaq sülh sazişinə hazırlıq müzakirə mövzusu olub.

Nəzərə alsaq ki, son illərdə Azərbaycan və Türkiyə siyasi və hərbi müstəvidə eyni hədəflərə doğru birgə addımlayır, şübhəsiz, qardaş ölkənin bu anlaşmadan kənarda qalması mümkün deyil. Hətta belə güman etmək olar ki, Zəngəzur məsələsində qarantor rolunda çıxış edən Birləşmiş Ştatlar artıq Cənubi Qafqazdan qovulmaq üzrə olan Rusiyanı Azərbaycan və Türkiyə ilə əvəzləməkdədir. Prezident Trampda çox yaxşı bilir ki, Türk ordusu olan yerdə hər zaman sabitlik və nizam-intizam hökm sürür. Heç də təsadüfi deyil ki, Ərdoğanın rəhbərliyi dönəmində qardaş ölkə hər zaman sülh carçısı rolunda çıxış edib, istər regionda, istər də bütün dünyada barışçıl mövqe ortaya qoyub. Bütün bunlar onu deməyə əsas verir ki, yaxın zamanlarda açılacaq Zəngəzur dəhlizinin təhlükəsizliyi sahəsində Azərbaycan hərbi qüvvələri ilə yanaşı, Türk ordusu da xüsusi missiya ilə təmsil olacaq. Bu isə son illərdə siyasi və hərbi münaqişələrdən təngə gələn Cənubi Qafqazda əbədi sülhün bərqərar olunması deməkdir.

***"Hürriyyət"***




# İranın Zəngəzur "müdaxiləsi"

## Yaxud özünə aid olmayan masada yer axtarmaq

***Azərbaycan və Ermənistan arasında imzalanan Zəngəzur koridoru razılaşması bölgə üçün tarixi bir dönüş nöqtəsidir. Bu layihə ilə illərlə bağlı qalmış Naxçıvan yolu açılır, regionda iqtisadi və nəqliyyat əlaqələri genişlənir. Amma, gözlənildiyi kimi, bu uğurun kölgəsində bir səs yenə eşidildi - İran hökuməti. Səs isə tanışdır: "Mane olacağıq, imkan verməyəcəyik." Sual yaranır: İranın bu məsələdə nə işi var?***

**Koridorun mahiyyəti**

Zəngəzur koridoru Naxçıvanla Azərbaycanın qalan hissəsini birləşdirəcək, Ermənistan ərazisindən keçən nəqliyyat və enerji marşrutudur. Bu yol nə İranın sərhədindən keçir, nə də İranın suverenliyinə toxunur. ABŞ-ın inkişaf hüququ ilə həyata keçəcək bu layihə Cənubi Qafqazı beynəlxalq ticarət xəritəsində daha əlverişli mövqeyə çıxarır.

**İranın əsassız narahatlığı**

İran rəsmiləri, xüsusilə Ali liderin müşaviri Əli Əkbər Velayati bu koridoru "geosiyasi təhlükə" adlandırıb, hətta onu "xarici işğalçılar üçün məzarlığa çevirmək" kimi sərt, diplomatik dildə desək, məsuliyyətsiz bəyanatlar veriblər. Əslində isə bu, təhlükə deyil - sadəcə İranın tranzit üstünlüyünü itirmək qorxusudur. Yəni məsələ təhlükəsizlik yox, pul və təsir itkisidir.

**Aidiyyətsiz müdaxilə - geosiyasi populizm**

İranın bu məsələyə müdaxiləsi beynəlxalq hüquq baxımından əsassızdır. Layihə İranın torpağına dəymir, sərhədlərinə toxunmur. Buna baxmayaraq, Tehran özünü bölgənin "qapı nəzarətçisi" kimi göstərməyə çalışır. Bu, sadəcə geosiyasi populizmdir - daxili auditoriyaya "güclü dövlət" obrazı yaratmaq cəhdidir. Əslində isə, belə bəyanatlar bölgədəki sülh prosesinə zərər vurur, Azərbaycanla Ermənistanın illərdir mövcud olan münaqişəsini həll etmək əvəzinə yeni gərginlik yaradır.

**Nəticə: hörmət və həqiqət**

İran qonşu dövlətlərin suveren qərarlarına hörmət etməlidir. Hər beynəlxalq layihəyə "bizim xəbərimiz olmadan olmaz" prinsipi ilə yanaşmaq, artıq köhnəlmiş siyasət yanaşmasıdır. Zəngəzur koridoru bölgə xalqları üçün iqtisadi rifah, sərbəst əlaqə və sülh deməkdir. Bu prosesə kənardan əsassız təhdidlər yağdırmaq isə yalnız bir şeyi göstərir - aidiyyəti olmayan mövzuda söz demək həvəsi.

***İlkin MƏMMƏDKƏRİMOV***

# “Köhnə Bakı üçün, köhnə insanlar üçün darıxıram”

## Cahangir Novruzov: “Sənət əxlaqının mənə miras qoyduğu şərtləri qəbul edərlərsə, Azərbaycana gələrəm”

***Tanınmış rejissor, aktyor, pedaqoq Cahangir Novruzov APA-ya müsahibə verib. “Hürriyyət” həmin müsahibəni qısa ixtisarla oxucularına təqdim edir:***

***- Səhər sizinlə telefonla danışanda nəvənizin gəldiyini dediniz. Nəvələrinizin içində Cahangir var?***

- Yox, yoxdur.

***- Babalarının adını daşıyan yoxdur?***

- Hansı adı istəyirlər, onu da qoyurlar. Mən belə məsələlərdə təkid edən adam deyiləm. Kimin ürəyindən nə keçir o adı da verir.

***- İllərdir ölkədən kənarda - Türkiyədə - yaşayırsınız. Qəribçilik bildiyim qədər yaradıcı adamlara təsir edir, doğulub-böyüdükləri yerlər üçün, dostlar üçün darıxırlar. Heç Türkiyədə yalnızlıq hissi ilə üzləşmisiniz?***

- Vətənin üçün darıxmaq çox normal hissdir. Türkiyə yad məmləkət deyil, doğmadır. Amma bütün hallarda mənim doğulduğum yer Azərbaycandır, Bakıdır. Hər kəs öz kəndinin daşı-kəsəyi üçün darıxar. Mən də darıxıram - dostlarım üçün, evimiz üçün, doğulduğum ünvan - Cəfər Cabbarlı 8-dəki o həyət üçün darıxıram. Köhnə Bakı üçün, köhnə insanlar üçün, artıq itməkdə olan bəzi adətlərimiz üçün darıxıram. Xülasə, Bakıya gələndə də darıxıram, gəlməyəndə də.

***- Bakıya gələndə nə üçün darıxırsınız?***

- Çox dəyərlərimizi unutduğunuz, itirdiyiniz üçün. “Müasirlik”, xüsusilə də informatik texnologiya vasitələrindən istifadə, əsasən milli köklərimizi sarsıdır, onlara zərər vurur. Bu “köpəkoğlu” telefonlar gənclərin beyninə özlərinin də xəbəri olmadan, elə şeylər yeridir ki, zamanla öz milli kimliklərindən və olması gərəkən gələcəklərindən uzaq düşürlər. Çünkü qloballaşma siyasətində milli kimlik sürüləşməyə mane olur.

***- Bakıya gələndə köhnə məhəllənizə gedirsiniz?***

- Hə, məhəlləmiz qalıb. Bəzən uşaqlıq dostlarımla görüşüb həsrət gideririk. Türkiyədə ən çox istirahət günlərində darıxıram. Çünki nə qohum, nə də köhnə dostlar var, nə də övladlarım yanımdadır. Kimə gedib bir çay içəsən? Ona görə ya işdə oluram, ya da arada bir oradakı dostların yanına gedirəm. Orada da çox gözəl dostlarımız var.

***- Cahangir müəllim, Bakı sürətlə gözəlləşir, müasirləşir. Amma bir məsələ də var ki, bu müasirlik bəzi köhnə evlərin sökülməsi, məhəllələrin, küçələrin öz simalarını dəyişməsi hesabına başa gəlir.***

- Sanki Bakının ruhunu redaktə ediblər. Hər dəfə Bakıya gələndə hansısa binanı haqsız olaraq yerində görməyəndə nə hisslər keçirdiyimi bir bilərsəydiniz?!..

***- Cahangir müəllim, Azərbaycan teatrındakı ümumi vəziyyət haqqında nə düşünürsünüz? Sizi qane edirmi?***

- Hər gəldiyimdə 2-3 tamaşaya baxmaqla bütün Azərbaycan teatrı haqqında danışa bilmərəm.

***- Ümumiyyətlə teatr salonlarına smartfonlarla girən, tamaşaya baxmaqdan çox onu çəkib sosial mediada paylaşmağa aludə olan çağdan tamaşaçının səviyyəsi necə, sizi qane edirmi?***

- Bilirsiniz, teatr tamaşasına baxmaq kimi, roman oxumaq kimi hər şeyin öz qaydası var. Sən heç vaxt roman oxuduğun sırada - əgər fövqəladə bir hadisə baş verməyibsə - qalxıb gedə bilməzsən. Dram əsərlərinin də öz oxuma qanunları var, tamaşada olduğu kimi istədiyin an qalxıb çıxa bilməzsən. Pərdə və ya şəkil bitəndə ayrıla bilərsən. Əks təqdirdə bir şey başa düşə bilməzsən.

Qarşında canlı insan olmadığında, kitab və ya telefondan bir əsər oxuduğunda düşünürsən ki, davranışınla ədibə hörmətsizlik etmirsən. Amma qarşısında Səməd Vurğun, Vaqif Səmədoğlu, ya da Mirzə Ələkbər Sabir otursaydı - onların sözünü yarıda qoyub gedə bilərdinmi? Bəs o zaman onların əsərini niyə səhlənkar oxuyursan, filminə niyə diqqətsiz baxırsan, hörmətsizlik edirsən? Söylədiklərimin hamısı tamaşaçı mədəniyyəti, tamaşaçı bilgiliyidir və bunlara riayət olunmur. Halbuki bu qayda-qanunlar mədəniyyətin özəyidir. O hər kəsin əlində gəzdirdiyi telefonlar, evdəki televizorlar əsil, olması gərəkən mədəniyyətimizi pozur. O telefonlar sayəsində dost olmayan, ya da dost kimi görünənlərin bizi görməyə məcbur etdiklərini görürük. Bizi inanmağa məcbur etdiklərinə inanırıq. Baxışlarımızı şəkilləndir, inanclarımızı qurğulayırlar. Bizi özümüzdən azdırırlar. Torpaq dediyin nədir ki? Niyə adını qoymuşuq ”vətən”? Halbuki quru torpaq parçasıdır. Bəs sən niyə onun uğrunda can qoyursan? Çünkü o torpaq parçasının üstündə yaratdığımız mədəniyyət dediyimiz adətlərimizdir, gələnəklərimizdir, qarşında duran insanın məsləyinə, böyüklərimizə olan hörmətimizdir, ailələrinizə verdiyimiz müqəddəs sevgimizdir, atalarımızın məzarlarına olan ehtiramımızdır onu Vətən eyləyən. O torpaq üstündə min illər qurbanlar verərək yaratdığımız mədəniyyətə görə müqəddəsdir, bu səbəbdən Vətəndir! Baxın, uğruna minlərlə can verdiyimiz Qarabağa milli mədəniyyətimizin beşiyi deyirik. Hər şeyin bir qaydası var. Biz yaratdığımız mədəniyyəti, bizim olan dəyərləri qoruyuruq və qorumalıyıq. Mədəniyyət bir millətin yüz illərlə, min illərlə torpağın üstündə yaratdığı və qiymətləndirdiyi uğrunda can verdiyi dəyərlərdir. Teatr da o mədəniyyətin ayrılmaz bir hissəsidir.

Jurnalistika nə vaxt korlandı bilirsinizmi? Amerikada biri çıxıb dedi: ”Əgər it adamı dişləsə, bu xəbər deyil. Adam iti dişləsə, bu xəbərdir.” O andan sonra insan dəyərdən düşdü, heyvana çevrildi. İndi heç bir film, tamaşa, xəbər belə, əgər içində ölüm, fəlakət, zorakılıq, əxlaqsızlıq yoxdursa, maraqlı sayılmır.

***- Bəs Türkiyədə bununla bağlı vəziyyət necədir?***

- Türkiyədə mədəniyyət xəbərləri deyilən bir şey yoxdur ki. Yeni tamaşalar qoyulur, filmlər çəkilir, kitablar yazılır. Amma bunların heç biri xəbərlərdə yer almır. Sanki qos-qoca Türkiyədə heç bir mədəniyyət hadisəsi baş vermir. Amma hər Qurban bayramında “öküz qaçdı!” xəbəri var. Bu, xəbərdirmi!? Bunlar hamısı insanları insanlıq dəyərlərindən uzaqlaşdırır. Milləti öz dəyərlərinə yabancılaşdırır.

***- Bu yerdə teatrın funksiyası nədir?***

- Teatrın vəzifəsi odur ki, insanları “sürü mədəniyyəti”ndən çıxarıb, hər birinə şəxsiyyət olduğunu xatırlatmaqdır.

***- Deməli, teatr məbəd olmalıdır?***

- Təbii. Teatr - yalanın həqiqətə xidmət etdiyi müqəddəs bir məbəddir; səhnə isə yalanın qurban edildiyi qurbangahdır. Amma artıq bizdə, hətta dünyada belə teatrın məbəd vəzifəsi demək olar ki, unutdurulub. Çünki biz çoxluq olaraq hər şeyi yıpratmağa, alışmışıq. Rüşvət, riyakarlıq, tanışlıqla iş görmək, haram, yalan kimi naqisliklər bizim xislətimizdə yer tutub. Bir tür qurtara bilmirik bu bəlalardan. Heyf ki, indi teatrımız da həyatımıza bənzəməyə başlayıb. Amma bu çox çəkməz, çünki yalan yol tutub çox yürüməz.

Teatr sənəti cəmiyyətin həyatını yalnız əks etdirməklə kifayətlənməyən, həm də onu formalaşdıran ən mühüm sosial institutlardan biridir. O, mənsub olduğu xalqın mənəvi, əxlaqi, fəlsəfi və estetik dəyərlərinin təşəkkül və inkişafının özünəməxsus memarlığını öhdəsinə almış bir sənətdir.

***- Düzəltməyə hardan başlamaq lazımdır?***

- Hər kəs özündən başlamalıdır. Bu boyda zəfər çalmışıq. Müzəffər bir xalq statusuna qurbanlar verərək ucalmışıq. Artıq bu ada layiq davranmalıyıq. Bilirsiniz, çox gözəl bir söz var: “Yaxşılıq edib qarşılığını gözləyənlər sələmçidir”. Müharibəyə getmisən, canını qoymusan, şikəst olmusan, övlad qurban vermisən. Bunlar hamısı doğrudur, müqəddəsdir. Amma bəziləri bundan sui-istifadə etməkdən çəkinmir. Mən Yaşat Fondunun İdarə Heyətinin üzvüyəm və fondun müharibə iştirakçıları üçün nələr etdiklərini yaxşı bilirəm. Mənə bilirsiniz, fırıldaqçılar tərəfindən nə qədər zənglər gəlib? Heç inanmazdım ki, vətəni uğrunda canlarını qoymuş insanların qazandığı o haqqı yemək istəyən alçaqlar var. Belə şeyləri edənlər elə Qarabağda xəyanət edənlərin xislətində olanlardandır. Belələrinin ucbatından o qəhrəmanların müqəddəs ruhlarının üzərinə kölgə düşəcəkdi. Bu həyatda gördüyüm ən böyük əxlaqsızlıq, şərəfsizlikdir. Hər milləti analar tərbiyə edir. Analarımız millətimizin əxlaqının məsuliyyətini və keşiyini çəkməlidirlər. Əxlaq çox vacib məsələdir. O milli mənəviyyatı bəlirlər. Əxlaq vicdandan doğur. Vicdanını susduranın, ana damarı, namus adlanan şah damarı çürüyüb məhv olar.

***- Dediniz ki, insanlarımızın şəxsiyyət kimi formalaşması üçün teatrın da məsuliyyəti düşür. Onun üçün belə bir sual vermək istəyirəm. Teatrlarımızın hazırkı durğunluqdan çıxmaqları üçün hansı praktiki məsləhətlər verə bilərsiniz? Nə etməliyik?***

- Teatr bənzərsiz bir sənətdir. Onun unikallığı isə tamaşaçı ilə canlı ünsiyyət qurmaq, onu ikna etmək, təhtəlşüuruna təsir edə bilmək gücündədir: o, səhnə hadisələri, obrazlar və duyğular vasitəsilə insanın zövqünün, fikrinin inkişafı üçün yol açmalıdır, vicdanını oyatmalıdır, milli özünüdərki möhkəmləndirməli, milli-mənəvi mədəniyyətimizin yaddaş kodlarını nəsildən-nəslə ötürməlidir. Məhz teatr cəmiyyətin öz ideallarını, səhvlərini və məqsədlərini yenidən dərk edərək mənəvi həyatını daima yeniləyə biləcək yeganə məkan olmalıdır.

Söylədiyim tablonu gerçəkləşdirə biləcək professionallar teatrlara gətirildiyində Azərbaycan teatrı yenidən dirçələ bilər. Teatrda baş rejissor-bədii rəhbər adlanan bir institut var idi. O illərlə püxtələşmiş, zamanla harmanlanmış bir məslək idi. Onu işi bilməyənlər ləğv etdilər. Onu yenidən yaratmaq müşkül məsələdir, amma səbirlə mümkündür...

***- Cahangir müəllim, qayıdaq yaradıcılığına. “Qu quşunun nəğməsi”ndən sonra vətəndə yeni tamaşaya quruluş verməyi düşünürsünüz?***

- Nədən olmasın. Təkidlə təklif edənlər var. Amma o teatrların yaradıcı və texniki potensialını öyrənməm lazımdır. Özəlliklə yetişməsini görmədiyim gəncləri, onların istedad və intellektual səviyyəsini bilməm öyrənib lazım.

***- Sizcə Cahangir Novruzov getməyib vətəndə qalsaydı, Azərbaycan teatrında hansı keyfiyyət dəyişikliyi olardı?***

- Bunu indi kimsə bilə bilməz. Mən də yalnız təxmin yürüdə bilərəm. Qoy bu suala bu vəziyyəti yaradanlar cavab versin.

***- Cahangir müəllim, 71 yaşınız var. Sualıma görə, üzr istəyirəm. Vətənə birdəfəlik qayıtmağı düşünürsünüz?***

- Mən Türkiyədə hal-hazırda aktiv yaradıcı və pedaqoji bir həyat sürürəm. Vətənə təqaüdə çıxmaq üçün gəlməm nə qədər doğru olur? Konkret təklif, dəvət hələ ki, yoxdur. Sanki qorxurlar, ehtiyat edirlər.

***- Əgər belə bir dəvət olarsa...***

- Əgər belə bir dəvət olarsa, 11 illik teatr savadımın, 70 ildir gördüyüm sənət əxlaqının mənə miras qoyduğu, öyrətdiyi şərtləri qəbul edərlərsə, gələrəm. Əks təqdirdə gəlib hər kəsin etdiyini etməm fərqli nəticə verməz. Teatrımızda olan xəstəliyi hamılıqla ortaya çıxarmaq onu gerçəkdən həyata qaytarmaq lazımdır.



“Teatrımızda olan xəstəliyi hamılıqla ortaya çıxarmaq onu gerçəkdən həyata qaytarmaq lazımdır”

***İlkin NAİB***




# Dağılmaqda olan tarixi hamamlar...

***Astara rayonunun Ərçivan kəndində qədim bir hamam vardır. Bu cənub bölgəsinin 1806-cı ildə xeyriyyəçi Kərbəla Həmid Abdulla tərəfindən şərq üslubunda tikilmiş ən qədim hamam sayılır. Səkkiz günbəzi olan binanın hörgüsündə yumurta sarısı və ocaq külünün qarışığından hazırlanmış məmulat və çiy kərpicdən istifadə edilib.***

Günbəzlərin quruluşu gün işığının içəri daxil olmasına imkan verir, gecələr isə hamamda şam işığından istifadə olunub. Heç bir texniki vasitəsi olmayan hamamın isitməsi yanacaq odunla görülüb. Quyudan çəkilən su qazanxanada isidilib. Eləcə tüstünün çölə çıxdığı kanallar hamamın döşəməsi boyu keçərək əlavə isitmə funksiyasını daşıyıb. Hamam həftədə dörd gün kişilərə, iki gün qadınlara xidmət göstərib. Yoxsullar isə bir gün burada pulsuz çimə biliblər. Həmçinin karvan yolunda yerləşdiyi üçün səyyahlar, tacirlər də hamama gəliblər. Deyilənlərə görə, hamamın müalicəvi əhəmiyyəti də olub. Odur ki, ağrılardan əziyyət çəkən yaşlı adamlar evdəki hamamı qoyub müalicə məqsədilə buraya gəliblər.

Məlumat üçün bildirək ki, hamam sovet dövründə yerli kolxoza verilib. Burada əldə olunan vəsait kolxozun hesabına keçib.

Ərçivan hamamı bir dəfə, yəni 1980-ci ildə təmir edilib. Abidə 2001-ci ilin avqustundan dövlət tərəfindən qorunsa da, unudulmuş kimidir. Belə ki, çoxdandır onun təmiri ilə maraqlanan yoxdur. Hətta bir günbəzi dağılaraq yararsız hala düşüb..

Cəlilabad rayonunda da qədim keçmişə aid tarixi hamamlar çoxdur. Təəssüf ki, biganəlik üzündən hazırda yararsız hala düşənləri də vardır. Yerli əhəmiyyətli daşınmaz memarlıq abidələrinə aid olan tarixi hamam sanki son günlərini yaşayır. Yaxınlarda tarixin nadir incisi sayılan bu binanın 100 yaşı tamam olacaq. Amma tarixi keçmişi bu günə qədər yaşadan və qorunan tikililər siyahısına əlavə edilən abidə olduqca acınacaqlı vəziyyətdədir.

Hamam o dövrün qırmızı kərpicdən tikildiyi üçün suya dözümlüdür. Qaldı ki, uzun müddətli yağan yağışların nəticəsində hazırda uçub-dağılır. Binanı təmir etməklə onu qoruyub saxlamaq olar. Elə cəlilabadlılar da əlaqədar təşkilatlardan bunu istəyirlər

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Rusiyada Azərbaycan mallarına qadağa tələbi...

## Vüqar Bayramov: "Bundan daha çox rusiyalı iş adamları ziyan görəcək"

***Xəbər verdiyimiz kimi, Rusiya Dövlət Dumasının deputatı Andrey Qurulev Azərbaycan mallarının ölkəyə idxalının qadağan edilə biləcəyini istisna etməyərək bildirib ki, "əgər Rusiyada Azərbaycan malları olmayacaqsa, biz bundan heç nə itirməyəcəyik, amma onlar üçün vəziyyət ciddi dəyişəcək".***

Bəs, doğrudanmı Azərbaycanın Rusiyadan iqtisadi asılılığı var? Potensial ticarət məhdudiyyətləri hansı ölkəyə daha çox zərər vura bilər?

İqtisadçı, deputat Vüqar Bayramov bildirib ki, hər iki ölkənin rəsmi statistikası təsdiqləyir: idxal qadağası tətbiq ediləcəyi halda uduzan tərəf Azərbaycan deyil, məhz Rusiya olacaq. Onun sözlərinə görə, 2024-cü ildə Azərbaycanla Rusiya arasındakı ticarət dövriyyəsi 4 milyard 799 milyon dollar təşkil edib. Bunun 3 milyard 621 milyon dolları Rusiyadan idxal, 1 milyard 178 milyon dolları isə Azərbaycandan ixrac olub.

"Bu isə o deməkdir ki, xarici ticarətdə Azərbaycanın Rusiya ilə 2 milyard 443 milyon dollarlıq mənfi saldosu var.



Yəni Rusiya təkcə ötən il bu ticarətdən 2 milyard 443 milyon dollar qazanc əldə edib. Deməli, qarşılıqlı ticarətdə hər hansı qadağalar Rusiyaya daxil olan valyutanın həcmini azaldacaq və bundan daha çox rusiyalı iş adamları ziyan görəcək", - deyə deputat vurğulayıb.

Bayramov qeyd edib ki, Azərbaycanın Rusiyaya ixracı ölkəmizin ümumi ixracatının cəmi 4,4 faizini təşkil edir.

"Yəni 26 milyard 338 milyon dollarlıq ixracımızın 95 faizindən çoxu Rusiyadan kənar bazarlara gedir. Buna görə də, Rusiyanın Azərbaycandan idxalı qadağan etməsi ölkəmizin ixrac potensialına ciddi təsir göstərməyəcək", - deyə o bildirib.

Deputat əlavə edib ki, Rusiyadan Azərbaycana pul köçürmələri də son illərdə kəskin azalıb: 2024-cü ildə fiziki şəxslər tərəfindən göndərilən vəsait 496 milyon 753 min dollar olub ki, bu da əvvəlki illə müqayisədə 53 faiz azdır. Onun sözlərinə görə, remittenslərin ÜDM-də payı 3 faizdən azdır və bu, region üzrə ən yaxşı göstəricilərdən biridir.

"Deməli, nə Rusiyadan, nə də başqa ölkədən pul köçürmələri baxımından asılılığımız yoxdur", - deyə Bayramov əlavə edib.

"Göründüyü kimi, hətta Rusiyanın öz rəsmi statistikası belə Dumanın bəzi deputatlarının dediklərini təsdiqləmir. Hərdən statistikaya baxmaq lazımdır, cənablar", - deyə millət vəkili sonda bildirib.

***KƏNAN***

# Sabiq icra başçısının şirkətində yoxlama...

## "Kaspian Biznes Servisez"ə 600 min sanksiya tətbiq edildi

***Qubanın qalmaqallı keçmiş icra başçısı Rauf Həbibovun rəhbəri olduğu şirkətdə yarım milyon manatdan çox vergindən yayınma faktı aşkar edilib.***

Hurrtiyyet.az "Qaynarinfo"-ya istinadən xəbər verir ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən "Kaspian Biznes Servisez" Məhdud Məsuliyyətli Cəmiyyətində (MMC) səyyar vergi yoxlaması həyata keçirilib.

Səyyar vergi yoxlaması üzrə məsuliyyətə cəlbetmə qərarının nəticəsində şirkət barəsində 400.100,35 manat əlavə vergi, 200.050,18 manat maliyyə sanksiyası hesablanıb.

MMC-nin hazırda Lokal Gəlirlər Baş İdarəsinə 338.298,8 AZN vergi borcu var.

Qeyd edək ki, nizamnamə kapitalı 20 manat olan "Kaspian Biznes Servisez" MMC-nin qanuni təmsilçisi Həbibov Rauf Xeyrulla oğludur. Onun ölkədən çıxışı müvəqqəti məhdudlaşdırılıb.

Xatırladaq ki, Rauf Həbibov 1 okty-



abr 2007-ci ildən 2012-ci ilin mart ayınadək Quba Rayonu İcra Hakimiyyətinin başçısı olub.

# Azərbaycan və Ermənistan sərhədə başqa ölkənin qüvvələrini yerləşdirməyəcək

***Azərbaycan və Ermənistan qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər.***

Bu, Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən paraflanan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsində əksini tapıb.

Sənədə əsasən, tərəflər, qarşılıqlı sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər, sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-quruculuğu tədbirləri həyata keçirəcəklər.





# Adilə Paşayevanın hakimlik fəaliyyətinə xitam verildi

***Sabunçu Rayon Məhkəməsinin hakimi Adilə Paşayevanın hakimlik fəaliyyətinə xitam verilib.***

"Qafqazinfo" xəbər verir ki, bu qərar hakimin öz müraciəti əsasında qəbul olunub.

A.Paşayeva ailə vəziyyəti ilə əlaqədar xarici ölkəyə köçəcəyini bildirib. Bu səbəbdən vəzifədən getmək üçün ərizə təqdim edib. Məhkəmə-Hüquq Şurası ərizəni təsdiqləyib.

Qeyd edək ki, Adilə Paşayeva həm də Sabunçu Rayon Məhkəməsinin spiker hakimi vəzifəsini icra edirdi.




# Avtobioqrafik xırdalıqlar

***Mən Yardımlı elinin "Bəylər kəndi" kimi tanınan Gilar kəndində 26 mart 1937-ci ildə Sultanlı ailəsində doğulmuşam. Avtobioqrafiyam təkcə uğurlarımdan ibarət deyildir. Bu, həm də həyat yolumda başıma gələnlərin, rastlaşdıqlarımın kiçicik bir hissəsini əhatə edir. Onlardan vaz keçib yalnız uğurlarımdan danışmaqdan da vaz keçirəm.***

**(Əvvəli ötən saylarımızda)**

1965-ci il dekabrın 5-də dəftəri yandıraraq məhv etdim. Düşündüm, rahatçılıq tapandan sonra yazdıqlarımı yenidən olsa-olsa, az itki ilə bərpa edə bilərəm. Dəftəri məhv edib Moskvaya yola düşdüm. Moskva mühiti Bakı mühitindən kəskin fərqlənirdi. Çoxötəcli (etajlı) möhtəşəm binalar, əzəmətli metro stansiyaları, möhtəşəm kitabxanalar, muzeylər, konsert salonları, teatr salonları, idman sarayları, elm ocaqları, tədris mərkəzləri, tibb müəssisələri... Ancaq hər yerdə işlənən dil rus dili, hər yerdə qorunan rus maaqarı. Müəssisələr, metro stansiyaları, küçələr... mənşəcə rus olan şəxslərin adlarını daşıyır, rus mənşəli sözlərlə ifadə olunub... Heykəllər rus mənşəli şəxslərə aid... Hər şey rus mədəniyyəti ilə, rus incəsənəti ilə, rus ədəbiyyatı ilə bağlı... Hər şey rus xalqının mənafeyinə, rus xalqının təbliğinə xidmət edir. Moskvada hər şeyin dövlət səviyyəli israfçılığı, Bakıda dövlət səviyyəli ürək sıxan qənaətcillik...

Taleyim məşəqqətli, əzabverici kənd təəssüratı ilə yüklənmiş, Bakıdan keçən yolumu Moskvaya salmışdı. Bu yolu zərurət yarananda gedib-gəlirdim, yeni-yeni incələmələrə, yeni-yeni mühakimələrə təkan verəcək faktlar toplayırdım. Yataqxana şəraiti də incələmələrə, mühakimələrə zəngin material verirdi. Yataqxanada imperiyanın əyalətlərindən gəlmiş aspirantlar yaşayırdılar. Onlar ayrı-ayrı millətlərə mənsub idilər. Oradakı, həm də işlədiyim yerindəki isanlarla müxtəlif mübahisələrə, müzakirələrə qoşulmalı olurdum. Burada milli mövzuda mübahisələr, müzakirələr daha çox olurdu. Moskvada gördüklərim, eşitdiklərim, bir də aspirantlarla müzakirələrin imperiya haqqında düşündüklərimi, qənaətlərimi formalaşdırırdı, ara-sıra vaxt tapıb qeydlər aparmağıma səbəb olurdu, məni məcbur edirdi. Moskvada apardığım ictimai məzmunlu qeydlərimi aspirantura müddətini başa vurub Bakıya qayıdandan sonra da davam etdirirdim.

Tələbəlik illərimdəki qeydlərimdə, olaylara xüsusi münasibət göstərdiyim, "filosof"luq elədiyim məqamlar da az olmurdu. 1973-cü ilin mart ayında BDU-da "Bahar bayramı" adlı bir cəmiyyət yaratdıq. Bu cəmiyyətin fəaliyyət istiqamətlərini Xudu müəllimlə məsləhətləşdik. Onun məsləhətlərini nəzərə aldıq, işlərimizi qurduq, cəmiyyət fəaliyyətə başladı, qısa müddətdə respublikada tanındı, səs saldı. 1975-ci ilin mart günlərinin birində (günü dəqiq yadımda deyil) məni rektorun axtardığını bildirdilər. Təcili universitetə yollandım. Burada həyəcanlı bir sakitlik hökm sürürdü. Rektorun qəbuluna getdim. İçəridə rektor Faiq Bağırzadə özü idi, bir də kitabxanaçılıq fakültəsinin bir müəllimi. Rektor məni görən kimi kükrəyib coşdu: "Sən universitetdə nə ilə məşğul olursan? Sən kimsən millətçilik edirsən, dəstə yaradıb dövlət əleyhinə təbliğat aparırsan, sənə kim icazə verib belə işlərlə məşğul olursan? Sanksiya gəlib, gedib türmədə 25 il yatarsan, ağlın başına gələr...".

Kabinetdəki müəllim haradan olduğumu soruşdu, Sovet hökumətinin məni, mənim kimiləri gətirib oxudub "adam elədiyini", xalqın bəylərin, mülkədarların zülmündən qurtulduğunu, ağ günə çıxdığını vurğuladı, Əbülfəz (o dönəmdə Əbülfəz Əliyev kimi tanınan Əbülfəz Elçibəy - B.S.) kimilərin "xalqa ləkə gətirdiyini", "xalqı üzükölgəli etdiyini"... nəzərə çatdırdı, hökm verdi: "Belələrini güllələmək də azdır". Rektor kağız-qələm verdi, işdən ərizəmlə azad olunmağım haqqında ərizə yazmağımı əmr etdi. Mən izahat vermək üçün nə qədər cəhd göstərdimsə, rektor imkan vermədi. Kitabxanaçı müəllim də ortaya söz atmaqdan qalmırdı. Ancaq kiçik bir fasilə yarandı, mən bundan istifadə edib sözümü dedim, tədbiri 1973-cü ildən bəri universitetin Böyük Zalında keçirdiyimizi, bu çağadək onun keçirilməsinin lazım bilinməməyini heç kimin bizə demədiyini rektora bildirdim. O, çaşmış kimi oldu, ciddi durum alıb təşviş içində dedi: "Harada? Mənim universitetimdə? Mənim Akt zalımda?". Sonra gəlib qarşımdan kağız-qələmi götürdü, əlavə etdi: "indi gedə bilərsən, get, istintaq hər şeyi aydınlaşdırar". Bu hərəkətimi, eləcə də rektorla olan söhbəti məslək dostlarım olan Xudu Məmmədə, Əbülfəzl Hüseyniyə, Xəlil Rzaya, Mirzə Abbaslıya, Məhəmməd Tantekinə, Qafar Kəndliyə, Cəfər Qiyasiyə... danışdım, Akt zalıyla bağlı rektora dediyimin onu ehtiyatlandırdığını ehtimal etdilər, dedilər, rektor bu sözddən qorxuya düşüb, təşviş keçirib. Belə sıxıntıdan, bu cür sarsıntıdan sonra düşündüklərimin yazılmasının çox da vacib olmadığını, yazmanı dayandırmağı lazım bildim. Ancaq bir qədər keçəndən sonra siyasi olquların sürətləndiyini, sovet dönəmindən narazı tanışlarımın çoxluğunu, yazılası məqamların çoxaldığını görüb yenidən qeydlər aparmağa ürəkləndim. Sovet məmurlarının, inzibati orqanlarının törətdikləri özbaşınalıqlar haqqında yazılmalı olaylar, yadda saxlanmalı məqamlar günbəgün artmaqda idi.

70 ilin üfunətli imperiya havası xeyli tündləşmişdi, SSRİ məkanını, dünya miqyasını dolaşmaqda idi. Məni rektorla söhbətdən sonra həbs etməsələr də, ara-sıra çağırıb sorğu-suala tutdular. Bunları nəzərə almaqla müəyyən götür-qoydan sonra ara sakitləşənədək Bakıda olmamaq qərarına gəldim. Bu məqsəd üçün elmi yollanış adıyla Moskvaya getmək ən əlverişli yolum ola bilərdi. Bu barədə fikrimi Xudu müəllimə bildirdim. Elm nəhəngi, qüdrətli ziyalı olan Xudu Məmməd həm də son dərəcə ağıllı, təmkinli, həssas bir insan idi. O, dinlədikdən sonra çox da düşünmədən, tərəddüd etmədən məni də özü ilə o zaman Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət universitetində (indiki BDU-da) Elmi İşlər üzrə prorektor işləyən, görkəmli riyaziyyatçı alim, böyük Azərbaycan ziyalısı Yəhya Məmmədin (Məmmədov) yanına apardı. Yəhya müəllim milli məsələdə tutduğum mövqeyə görə mənimlə yaxşı münasibətdə idi. Xudu müəllimi o, çox böyük ehtiramla qarşıladı. Xudu müəllim mənim Moskvaya getməyimin vacibliyini ona bildirdi, lazımi köməklik göstərməsini xahiş etdi. O da bu məsələdə mümkün köməkliyi göstərəcəyinə söz verdi. Yəhya müəllim mənim bəzi adamların yanında yaxşı başa düşülən adam olmadığımı, işlərimə başqalarının yenə də ciddi əngəl törədəcəklərini vurğuladı.

Doğrudan da sonralar çox ciddi əngəllərlə qarşılaşdım. Səlahiyyətlilərdən bəziləri məni işsiz, fəaliyyətsiz görmək istəyirdi. Onlar düşünürdülər, mən nə qədər işsiz-gücsüz qalsam, o qədər dilim qısa, gözüm qıpıq olar, cəsarətim azalar, mütiləşməyimə şərait yaranar, asan idarə olunaram. Mən isə bu istəyin gercəkləşməsinə imkan yaradan şəxs deyildim, keyfiyyətlərim onların istədiyinə cavab vermirdi. Düşünürdüm, nə qədər çox işləsəm, yaxşı sonuclara malik olsam, nə qədər təmiz, qüsursuz davransam, sərbəst olmağıma o qədər güclü özül yaranar. Onlar mənim belə düşündüyümü, belə olduğumu öncədən başa düşürdülər. Moskvada əlaqələrimin geniş olduğunu bilirdilər, həm də başa düşürdülər, işləməyimə Moskvada daha yaxşı şərait olar, orada daha çox iş görə bilərəm. Müxtəlif səbatsız, sübutsuz bəhanələrlə işlərimi əngəlləməkdən usanmasalar da, iradəmə də yaxşı bələd idilər.

Moskvaya elmi yollayışa getmək fikrimi Yəhya müəllimin "dostlarım" adlandırdığı şəxslər eşidən kimi bunu kəskin etirazla qarşıladılar, sənədsiz-sübutsuz bəhanələr gətirərək hər dəfə fikrimə açıq-açığına etirazlarını bildirdilər. Bunların öz etirazlarını əsaslandıra bilməmələri qələbəmin labüdlüyünə inamımı gücləndirirdi, mənim daha da öz fikrimdə israrlı olmağıma təkan verirdi. Moskva səfərimə törədilən əngəllərin ömrü az oldu. Mənə münasibətlərində dəyişiklik etmək istəməyən həmin adamların məni əngəlləmək iqtidarında olmadıqlarını bir daha yəqinləyəndən sonra ən təsirli bir variant seçdim: rektorun adına ərizə yazdım, orada cari ildə yerinə yetirəcəyim elmi iş planına lazım olan sonucları almaq üçün Bakıda cihazın olmadığını göstərdim, ona görə də mənim Moskvaya gedərək oradakı cihazlarda həmin sonucları almağa ehtiyac yarandığını vurğuladım. Ərizəmdə əks halda, cari il üçün elmi iş planımın yerinə yetirilməyəcəyini rektorun nəzərinə çatdırmışdım. Bu fikrimdə müəyyən həqiqət olsa da, başlıca məqsədim Bakıdan uzaqlaşmaq, bir müddət həbs olunmaq, təqibə məruz qalmaq təhlükəsindən uzaq düşmək idi. Ərizəmi oxuyan kimi dəhşətə gəldilər. Ancaq onların məqsədlərinə çatmaları üçün çıxış yolu da qalmamışdı.

Ərizədə göstərdiyim kimi, Moskvaya gedişim baş tutmasaydı, illik elmi hesabat verə bilməyəcəkdim. Bunun da məsuliyyəti "dostlarım"ın boynunda qalacaqdı. Bu, o dönəm üçün çox böyük məsuliyyət idi. Ona görə də "dostlarım" ərizəmin



**Bəhmən SULTANLI**

üstünə istəyimə etiraz etmədiklərini yazmaqla bildirdilər. Ərizəni Yəhya müəllimə çatdıranda razılığı almağa necə nail olduğumu soruşdu, bu işimi "qəhrəmanlıq" adlandırdı, ərizənin üstünü yazıb əmrə göndərdi. Üstəlik kadrlar şöbəsinə zəng vurub məni tez yola salmağı tapşırdı. Ertəsi gün Moskvaya yola düşdüm. Moskvada qısa müddətə işlərim yoluna düşdü. QİAP-da aspirant ikən işlədiyim professor Aleksandr Valentinoviç İoqansenin laboratoriyasında, o zamankı SSRİ EA-nın Troitsk şəhərində yerləşən Spektoskopiya institutunda fizika-riyaziyyat elmləri doktoru German Nikolayeviç Jijinin laboratoriyasında işləmək üçün razılıq aldım. QİAP-ın köməyi ilə aspirantura illərində yaşadığım Karpov adına Dövlət Fiziki-Kimya institutunun Moskva şəhərinin Babuşkino qəsəbəsində yerləşən yataqxanasında Spektoskopiya İnstitutunun təsərrüfat işləri üzrə direktor müavini milliyyətcə tatar olan köməyi ilə yerlə təmin olundum. Elmi işlərimi yerinə yetirmək üçün artıq, lazımi şərait yaranmışdı. Burada işlərimi elə qurmalıydım ki, Bakıya qayıdanda mənə göstəriləcək təzyiqlərə, hücumlara sipər ola bilsin, müqavimət qüvvəmi artırmış olsun, üzümü ağ, dilimi uzun eləsin. Beləcə intensiv, eyni zamanda planlı işləyirdim. Bu günün işini sabaha saxlamırdım, yeni elmi sonuclar almağa çalışırdım. Ona görə də işləmək həvəsim artırdı, həyat eşqim yüksəlirdi, işə marağım güclənirdi. Bunlar sərbəstliyimə, sərbəst düşünməyimə, sərbəst işləməyimə çox güclü zəmin yaradırdı.

**(Ardı var)**